YENİ MÜSAVAT
N 61 (6382) 17 mart 2016



# İlham Əliyev milli iqtisadiyyatın inkişafına dair mühüm sərəncam verdi

## Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin işlənib hazırlanması üçün işçi qrup yaradıldı

**Prezident İlham Əliyev "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında sərəncam imzalayıb.**

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nə müvafiq olaraq inkişaf planlarının işlənilməsi məqsədilə aşağıdakı tərkibdə işçi qrupu yaradılıb:

**İşçi qrupunun rəhbəri:**

Natiq Əmirov - Prezidentin İqtisadi islahatlar üzrə köməkçisi.

**İşçi qrupunun üzvləri:**

İlqar Fətizadə - maliyyə nazirinin birinci müavini

Sevinc Həsənova -iqtisadiyyat nazirinin müavini

Alim Quliyev - Mərkəzi Bankın sədrinin birinci müavini

Vilayət Vəliyev - İqtisadiyyat Nazirliyinin İqtisadi islahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru

Ədalət Muradov - Dövlət İqtisad Universitetinin rektoru

Emin Hüseynov - ADA Universitetinin prorektoru

İşçi qrupuna tapşırılıb ki, sərəncamla təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" nəzərə alınmaqla, aşağıdakı layihələri altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

- 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasının və tədbirlər planının layihəsini;
- 2025-ci ilədək dövr üçün uzunmüddətli baxışın layihəsini;
- 2025-ci ildən sonrakı dövrə hədəf baxışın layihəsini.

Müəyyən edilib ki, sərəncamda nəzərdə tutulmuş layihələrin hazırlanması işinə İşçi qrupu tərəfindən yerli və xarici ekspertlər, mütəxəssislər, məsləhətçi şirkətlər və elmi təşkilatlar cəlb oluna bilər, layihələrin hazırlanması ilə əlaqədar Azərbaycana dəvət edilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrindən viza ala bilərlər, İşçi qrupunun dəvət məktubu viza verilməsi üçün əsas hesab edilsin.

Nazirlər Kabinetinə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının və aidiyyəti dövlət qurumlarının rəhbərlərinə tapşırılıb ki, İşçi qrupunun müraciəti əsasında lazımi məlumatların və sənədlərin təqdim olunmasını, habelə İşçi qrupunun fəaliyyətində nümayəndələrinin iştirakını təmin etsin.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Azərbaycan xoşbəxt ölkələr sırasında 81-ci yerdədir

**Azərbaycan dünyanın ən xoşbəxt ölkələri sırasında 81-ci yerdə qərarlaşıb. APA-nın məlumatına görə, hesabat BMT nəzdində Dayanıqlı İnkişaf Məsələlərinin Həlli Şəbəkəsi və Kolumbiya Universitetinin Yer İnstitutu tərəfindən hazırlanıb. Reytinq 157 ölkə üzrə tərtib olunub. Siyahıda ilk yerdə Danimarka, sonuncu yerdə Burundidir. Siyahıda Ermənistan 121, Gürcüstan 126-cı yerdə qərarlaşıb.**

ABŞ 13-cü, Böyük Britaniya 23-cü, Fransa 32-ci, İtaliya 50-ci, Rusiya 50-ci, Türkiyə 78-ci yerdədir.

# Bu gün Rauf Mirqədirovun apelyasiya şikayəti üzrə qərar veriləcək

**Bakı Apelyasiya Məhkəməsində jurnalist Rauf Mirqədirovun apelyasiya şikayəti üzrə məhkəməsi davam etdirilib. "Report"un məlumatına görə, hakim Abid Abdinbəyovun sədrliyi ilə keçirilən prosesdə R.Mirqədirovun vəkili Fuad Ağayev çıxış edib. O, jurnalistə bəraət verilməsini xahiş edib.**

Məhkəmə bu gün davam etdiriləcək.

Qeyd edək ki, R.Mirqədirov 2014-cü ilin aprel ayında Türkiyədə saxlanılıb. Jurnalist daha sonra Azərbaycana deportasiya olunub. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunub. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə R.Mirqədirov 6 il müddətinə azadlıqdan məhrum edilib. O, həmin hökmdən apellyasiya şikayəti ilə Bakı Apelyasiya Məhkəməsinə müraciət edib.

## Başsağlığı

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi**
**Aydın Quliyevə**
**bacısı Gülgəz xanımın**
**vəfatından kədərləndiyini bildirir,**
**dərin hüznlə başsağlığı verir.**

# Daxili işlər orqanlarında yeni təyinatlar oldu

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov bununla bağlı müvafiq əmrlər imzalayıb. (APA) Əmrlərə əsasən, Suraxanı Rayon Polis İdarəsinin əməliyyat işləri üzrə rəis müavini Akif Nəzərli xidmətdə olmanın son yaş həddi ilə əlaqədar təqaüdə göndərilib. Onun yerinə hələlik təyinat yoxdur.**



Bundan başqa, Suraxanı Rayon Polis İdarəsinin 33-cü Polis Bölməsinin rəisi Samir Qurbanov öz ərizəsi ilə daxili işlər orqanlarından xaric edilib.

Suraxanı Rayon Polis İdarəsinin 30-cu Polis Bölməsinin rəisi Tuncay Abbasov tutduğu vəzifədən azad edilərək 33-cü Polis Bölməsinin rəisi, Abşeron rayon Polis İdarəsinin Mehdiabad Polis Bölməsinin rəisi Eldar Qazıbəyov tutduğu vəzifədən azad edilərək 30-cu Polis Bölməsinin rəisi vəzifəsinə təyinat alıb.

E. Qazıbəyovun yerinə hələlik təyinat yoxdur.

Qeyd edək ki, təqaüdə göndərilən A. Nəzərli 2014-cü ilin fevralında yaşadığı evin qarşısında əvvəllər məhkum olunmuş Gülağa Lətifov tərəfindən güllələnib. Uzun müddət müalicə alan rəis müavini işə qayıtdıqdan bir il sonra təqaüdə göndərilib.

33-cü Polis Bölməsinin rəisi vəzifəsinə təyinat alan Tuncay Abbasov isə deputat Aqil Abbasın oğludur.



# Sabiq daxili işlər naziri Məhəmməd Əsədovun oğlu prokuror təyin edildi

**Bakının iki rayonuna yeni prokuror təyin edilib. APA-nın məlumatına görə, baş prokuror Zakir Qaralovun imzaladığı müvafiq əmrlərlə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi İbrahim Lənbəranski tutduğu vəzifədən azad edilərək Pirallahı rayon prokuroru, Səbayel rayon prokuroru vəzifəsini müvəqqəti icra edən Natiq Əsədov isə Səbayel rayon prokuroru vəzifəsinə təyin ediliblər.**

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev 2012-ci ildə Pirallahı rayonunun, 2013-cü ildə isə Pirallahı Rayon Prokurorluğunun yaradılması haqqında sərəncam imzalayıb.

Qeyd edək ki, Pirallahı rayon prokuroru təyin olunmuş İ. Ləmbəranski Azərbaycanda başlanmış bir sıra səs-küylü cinayət işlərinin istintaqını aparıb.

Səbayel rayon prokuroru vəzifəsinə təyinat alan N. Əsədov isə 1991-ci ildə Qarakənd faciəsi zamanı həlak olan Azərbaycanın sabiq daxili işlər naziri Məhəmməd Əsədovun oğludur.

# Dolların məzənnəsi 1,61 manata yaxınlaşır

**Azərbaycan Mərkəzi Bankı (AMB) martın 17-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. Bankdan musavat.com-a verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi martın 17-nə 1,6102 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, dollar dünən 1,6186 manata bərabər olub.**

# Elmar Məmmədyarov: "Azərbaycanlı və erməni icmaları arasında təmas və dialoq yaradılmalıdır"

**Xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salberi qəbul edib. Nazirliyin mətbuat xidmətindənAPA-ya verilən məlumata görə, görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb, əməkdaşlığın inkişaf etdirilməsində qarşılıqlı maraq ifadə olunub.**

E. Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesi haqqında məlumat verərək, münaqişənin regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olduğunu diqqətə çatdırıb. Mövcud status kvonun qeyri-davamlı və qəbuledilməz olduğunu deyən nazir əlavə edib ki, status kvonun dəyişdirilməsi və münaqişənin həlli üçün ilk növbədə Ermənistanın silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır. Ermənistanın Azərbaycana qarşı təcavüzünə son qoyulması və Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən çıxarılmasının mühüm etimadyaradıcı tədbir olacağını qeyd edən E. Məmmədyarov Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları arasında təmas və dialoqun yaradılmasının vacibliyini nəzərə çatdırıb.

Herbert Salber Avropa İttifaqının Azərbaycanla əlaqələrin inkişafına önəm verdiyini bildirərək, bir sıra sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğunu vurğulayıb

Görüşdə Azərbaycanla Aİ arasında enerji sahəsində tərəfdaşlıq, "Cənub Qaz" dəhlizinin vacib komponentləri olan TAP və TANAP layihələrinin əhəmiyyəti qeyd olunub. Eləcə də tərəflər elm, təhsil, humanitar və digər sahələrdə əməkdaşlıq məsələlərini müzakirə ediblər

Görüşdə qarşılıqlı maraq kəsb edən regional və qlobal məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Antiböhran koalisiyası "Böhrandan çıxış yolu: - koalision hökumət problemi" tədbiri keçirəcək

**Martın 16-da müxalifətin antiböhran koalisiyasına daxil olan partiyaların rəhbərlərinin toplantısı keçirilib. Koalisiya üzvü ADP-dən verilən xəbərə görə, iclasda müzakirə olunan məsələlərə uyğun olaraq, müvafiq qərarlar qəbul edilib. "Ölkədə böhran" və "Siyasi müxalifətin problemləri" mövzularında dinləmələrin keçirilməsi qərarı verilib. Aprel ayının 1-ci ongünlüyündə "Böhrandan çıxış yolu: - koalision hökumət problemi" mövzusunda konfrans keçirilməsi qərara alınıb.**

Bununla yanaşı, Ankarada baş verən terror aktı pislənilib, türk millətinə və dövlətinə başsağlığı verilib.

Azərbaycan mühacirlərinin siyasi və sosial hüquqlarının bərpası ilə bağlı sənədin hazırlanması iclasın sədrinə tapşırılıb.

❑ E.SEYİDAĞA

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur

# Azərbaycan və Türkiyə pilotları şərti terrorçuların məhv edilməsi əməliyyatı keçirdilər

**Türkiyənin Konya şəhərində keçirilən "TURAZ Şahini - 2016" birgə taktiki-uçuş təlimləri davam edir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, təlimlərin ssenarisinə əsasən, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları birgə F-16 qırıcı təyyarələri ilə şərti olaraq terrorçuların yerləşdiyi məkanların məhvetmə əməliyyatını keçiriblər.**

Təlim əməliyyatı zamanı şərti döyüşə girən F-16 qırıcıları qoruma təyyarələri vasitəsilə mühafizə edilib. Birgə keçirilən əməliyyat uğurla başa çatıb. Şərti terrorçular və onların yerləşdikləri ərazi məhv edilib.

Təlimlər davam edir.

# PKK-nın Suriya qolu müstəqil dövlət yaratmağa hazırlaşır

**PKK-nın Suriya qolu PYD Suriyanın şimalını federasiya elan etməyə hazırlaşır. Avropa.info xəbər verir ki, bu barədə Kobani anklavının rəhbərliyi Reutersə danışıb.**

"Kürdlər və digər qrupların nəzarət etdiyi ərazilərdə özünüidarəetmə formasının sərhədlərini genişləndirməyi planlaşdırırıq" - İdris Nassan belə deyib.

Nassanın sözlərinə görə, yeni idarəetmə Şimali Suriya Federasiyası adını alacaq və bu torpaqlarda yaşayan bütün etnik qrupları təmsil edəcək.

PKK-nın siyasi qolu PYD və silahlı qolu YPG Suriya-Türkiyə sərhədində 400 km-ə yaxın ərazi zəbt ediblər. Buna baxmayaraq, PYD Cenevrədə keçirilən sülh danışıqlarında iştirak etmir. Ankara bu təşkilatları terrorçu saydığından iştiraklarına qadağa qoyub.

# "AtaBank"ın baş direktoru işdən çıxarıldı

**"AtaBank" ASC-nin rəhbərliyində dəyişiklik olub. APA xəbər verir ki, bankın İdarə Heyətinin üzvü, icraçı direktoru Bətulə Əhədova tutduğu vəzifən uzaqlaşdırılıb. Xatırladaq ki, bir müddət öncə bankın İdarə Heyətinin sədri dəyişib.**

Dəyanət Quliyev bu vəzifədə Etibar Babaşlını əvəzləyib. Hazırda E. Babaşlı sədrin müavinidir. Onlardan başqa İdarə Heyətində Hüseyn Bayramov, Emil Əmirov və Rauf Hüseynov təmsil olunurlar. Adları çəkilən hər üç şəxs İdarə Heyətinin üzvü olmaqla yanaşı, həm də icraçı direktordur.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Mənzil bazarında ziddiyyətli proqnozlar - ekspertlər kimə işləyir?

**Mənzil bazarı ilə bağlı çaşqınlıq davam edir. Bu çaşqınlıq və qərarsızlıq təkcə ev satanların bahalıq fürsəti axtarması və potensial müştərilərin gözləmə mövqeyi tutması ilə müşahidə edilmir. Həm də ekspertlərin fərqli, hətta təzadlı proqnozlar verməsi ilə diqqət çəkir. Bu isə ekspertlərin bu məsələdə maraqlı tərəf kimi çıxış etməsi ilə bağlı iddiaların ortaya çıxmasına səbəb olur. Mənzil bazarı üzrə ekspertlər bu iddialara cavab veriblər.**

## Ekspertlər iddiaları cavablandırıblar, əslində bazarda qiymət artımının əsası yox imiş...

**Ekspert Ramil Osmanlı** bildirib ki, yaxın gələcəkdə qiymətlərin düşəcəyi ehtimalı var: "Hələ ki mənzillərin qiymətləri ucuzlaşma istiqamətində davam edir. Yəni böyük ehtimalla yaxın aylarda ucuzlaşma davam edəcək. Qiymət azalmasının səbəbləri də hər kəsə məlumdur. Artım üçün hələ ki ciddi iqtisadi əsas yoxdur".

**R.Osmanlı ekspertlərin qəsdən yanlış informasiyanı ictimailəşdirməsinə də toxunub:** "Ziddiyyətli açıqlamaların səbəbini deyə bilmərəm. Hesab edirəm ki, ümumiyyətlə daşınmaz əmlak bazarında heç bir araşdırma aparmayan, bu sahədə fəaliyyət göstərməyən adamın birdən-birə durub daşınmaz əmlakla bağlı bir-iki il müddəti əhatə edən proqnoz verməsi doğru deyil. Bunun qəti şəkildə əleyhinəyəm. Nəzərə alaq ki, Azərbaycan bazarında indikatorlar yoxdur. İndikatorlar olmayan bazarda uzunmüddətli proqnozların verilməsi düzgün də deyil. Nəzəri baxımdan düzgün deyil, həm də praktik olaraq Azərbaycan bazarı üçün xarakterik deyil. O ki qaldı bu informasiyaların arasında ziddiyyətlərə, qiymət artımı üçün ciddi əsaslar olmalıdır. Bu əsaslar makroiqtisadi faktorlardır. Əhalinin gəlirləri artmalıdır. Neftin qiymətində ciddi artım baş verməlidir. Ölkəyə daxil olan vəsaitlərin həcmi artmalıdır. Bunlar baş verədiyi təqdirdə, mənzil bazarında artımdan danışmaq olmaz. Həmçinin hökumətin tikinti-infrastruktur layihələrinə ayırdığı vəsaitlərin həcmi artmalıdır ki, bu da mövcud deyil. Belə olan təqdirdə, hesab edirəm ki, qiymət artımından danışmaq düzgün deyil, ümumiyyətlə, yolverilməzdir".



**Ekspert Rəşad Əliyev isə musavat.com-a deyib ki, fevral ayında bazarda aktivləşmə var idi:** "Alqı-satqı əməliyyatlarının artımı müşahidə edildi. Bunun da iki səbəbi var idi. Birinci səbəb bank sektorunda, depozitlərdə pul axınının davam etməsi idi. Həmin pul axını 2015-ci ilin sonunda və 2016-cı ilin əvvəlində davam etmişdi. Bu pulların da bir hissəsi əmlak bazarına gəlmişdi. Bazarda aktivliyi yaradan ən başlıca amil məhz bu olmuşdu. İkinci amil ondan ibarətdir ki, qiymətlərin daha da azalmasını gözləyən alıcılar var, onların artıq bir hissəsi hesab edir ki, qiymət enməsi davam etməyəcək. Uzun müddət gözləyirlər, psixoloji cəhətdən gözləməyə tab gətirə bilmirlər. Bu səbəbdən fevralda aktivləşmə oldu və bu, gözlənilirdi". **Ekspert ziddiyyətli açıqlamaların olmasını bu şəkildə izah edib:** "Məsələn, fevraldakı aktivləşmənin səbəbini dedim. Bazara çoxlu həcmdə pul daxil olmuşdu. Bu aktivləşmə də bəzilərində rəy yaratdı ki, bazarda canlanma var. Bazarda canlanmanın fundamental əsası yox idi. Bu, texniki xarakter daşıyan hadisə idi. Bazara pul daxil olmuşdu. Bu formada pulun bazara axması isə sonsuz ola bilməz, davam edə bilməz. Ona görə bazarın aktivləşməsi bəzi insanlarda illüziya yaratdı ki, mənzil bazarı dirçəlir. Ancaq bu, müvəqqəti xarakter daşıyırdı".

**❑ RÖYA**

# Turizm təhlükəli sahəyə çevrilir

## "Terror turizmi də məhv edir"



**Artıq turizm dünyanın əksər ölkələrində təhlükəli sahəyə çevrilib. Böyük güclərin savaşında hər hansı ölkənin nüfuzuna zərbə vurmaq üçün çox zaman terrorçular oranın yerli vətəndaşları ilə birgə turistləri də hücuma məruz qoyurlar. Sonuncu belə hadisə Fil Dişi Sahilinin turist şəhəri olan Grand Bassamda baş verib. Bir qrup silahlı dəstə hotelə hücum edib. Hücumda aralarında alman, fransız və digər xarici turistlərin də olduğu 16 nəfər dünyasını dəyişib. Hadisəyə görə məsuliyyəti "əl-Qaidə" adlı terror təşkilatı üzərinə götürüb. Hadisə hotelin təhlükəsizlik kameralarında da əks olunub. Bu terror bir daha turizmin də təhlükəli bir sahə olduğunu və bəzi ölkələrdə istirahətin insanlara həyatları bahasına başa gələcəyini sübut edib.**

Digər tərəfdən, Türkiyədə baş verən ardıcıl terror hücumları artıq qardaş ölkənin də turistlər üçün heç də təhlükəsiz olmadığını sübut etdi. Belə ki, terror hadisələri və bu zaman turistlərin hədəf olması ölkənin nüfuzuna vurulan ən böyük zərbə sayılır.

**Politoloq, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** "Yeni Müsavat"a danışarkən bildirdi ki, artıq terrorçular da taktikanı və strategiyanı dəyişirlər: "Əvvəllər belə bir üsul yox idi ki, terrorçular turistlərə hücum çəksin, çimərliklərdə turistləri qətlə yetirsinlər. Amma son 5 ildə biz görürük ki, bu hadisələrin sayı çoxalıb. Və ya Misirdə İŞİD terrorçuları və ya başqa terrorçular rus vətəndaşları ilə dolu olan təyyarəni ona görə vurdular ki, bu, Misirin turizminə ziyan gətirsin və həqiqətən ziyan də gətirdi. Bu təyyarənin vurulmasından sonra Rusiya və digər ölkələrə Misirə turist göndərmək məsələsində qırmızı işıq yandırdılar. Bu da Misirin turizmdən əldə edilən gəlirlərinə çox mənfi təsir etdi. Misirin əsas gəlir mənbələrindən biri də məhz turizmdir. Şimali Afrika ölkələrində olduğu kimi Misirə heç böyük turist axını da yox idi. Lakin gələnlər də artıq bundan imtina etdi və Misirin turizm gəlirləri azaldı".

**E.Şahinoğlu turizm ölkələrinin təhlükəsizlik məsələsinin də insanlar üçün önəmli olduğunu vurğuladı:** "İnsanlar hansısa bir ölkəyə gedərkən, dincəlmək məsələsini hədəf qoyarkən, artıq onu da fikirləşirlər ki, orada vəziyyət nə dərəcədə sabitdir. Həmin ölkənin ətrafında terrorçular varmı? Artıq istirahətə getmək istəyən və ölkə seçmək istəyən insan bu amilləri də diqqətə almaq məcburiyyətindədir. İnsanlar turist kimi artıq o ölkələrə gedirlər ki, orada heç bir təhlükə olmasın.

Çox təəssüf ki, Türkiyədə də müəyyən problemlər yaşanır. Düzdür, Türkiyənin Aralıq dənizi sahilində, Qara dəniz sahilində hələ ki elə bir hadisə baş verməyib. Amma Türkiyənin özündə baş verən son terror aksiyaları müəyyən qədər Avropadan gələn turistləri də düşünməyə məcbur edə bilər. Ancaq hər halda, düşünürəm ki, Rusiyanı çıxmaq şərtilə, turist axını azalmayacaq".

**Turizm sahəsi üzrə ekspert Çingiz İsmayılov isə siyasi problemlərin son nəticədə turizmə də zərbə vurduğunu bildirdi:** "Türkiyədə və Fil Dişi Sahilində baş verənlər birbaşa olaraq turizmə qarşı yönəlməyib. Sadəcə, Rusiya Türkiyəyə qarşı həm də iqtisadi alətlərlə mübarizə aparmağa çalışır. Bu məhz həmin siyasətin bir hissəsidir. Rusiyanın ilk addımı o idi ki, Türkiyə ilə vizanı kəsdi. Ancaq Türkiyə öz tərəfindən açıq saxlayıb. Çünki fikirləşir ki, ruslar turizm məqsədilə gələ bilər. Lakin rus vətəndaşlar da başa düşürlər ki, Rusiyadan birbaşa Türkiyəyə getmək alqışlanan deyil".

**Ç.İsmayılovun fikrincə, ruslar müxtəlif yollarla, Ukrayna, Belarus vasitəsilə Türkiyəyə gedəcəklər:** "Türkiyədən imtina etmək mümkün deyil. Çünki ən ucuz və ən keyfiyyətli xidmət ordadır. Məsələn, Fil Dişi Sahili, Cənub Şərqi Asiya ölkələri, Afrika ölkələri Türkiyədən daha uzaqdır, orada xərclər daha çoxdur, Türkiyədən daha bahadır. Xidmət Türkiyədə daha yüksəkdir, rəqabətə davamlıdır. Ona görə də Qazaxıstan, Ukrayna, Belarus vasitəsilə ruslar gedəcəklər.

Qaynar nöqtələrdən uzaqlaşdıqca təhlükə azalır. Ən təhlükəsiz yer hazırda Havay adalarıdır. Yaxın Şərqdə hazırda gərginlik var. Suriya, onun ətrafındakı problemlər, Cənubi Avropada, Balkan adalarında gərginlik hökm sürür. Təbii ki, Yunanıstana da turist axını azalacaq. Yəni qaynar yerlərdən uzaqlaşdıqca, təhlükə azalır. Potensial turist isə öz təhlükəsizliyini təmin etmək və sakit istirahət etmək istəyir. Bu səbəbdən təhlükəsizlik məsələsi önəmlidir".

**❑ Nərgiz LİFTİYEVA**



# Bayrama görə Bakıya 250 avtobus gətirildi

**Novruz bayramı ilə əlaqədar Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal Kompleksi gücləndirilmiş iş rejiminə keçib. Bu barədə trend.az-a kompleksin rəsmisi Məhəmməd Abdullayev məlumat verib.**

Qurum rəsmisi bildirib ki, Novruz bayramı ilə əlaqədar Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal Kompleksi martın 15-dən 28-nə qədər gücləndirilmiş iş rejimində işləyəcək: "Bayram öncəsi sərnişin sıxlığını nəzərə alaraq kənardan 250-dək sərnişin daşıyan nəqliyyat vasitəsi ehtiyat kimi dəvət edilib. Adi günlərdə avtovağzaldan 300-340 nəqliyyat vasitəsilə 7-8 min sərnişin yola salınırdısa, bayram günlərində 600-700 nəqliyyat vasitəsilə 16-17 min nəfər sərnişinin yola salınması nəzərdə tutulur".

M.Abdullayev bildirib ki, adi günlərdə olduğu kimi, bayram günlərində də sərnişin avtobuslarına bilet satışı 10 gün əvvəldən həyata keçirilir: "Bilet satışları həm avtovağzalın kassalarından, həm də online satış vasitəsilə həyata keçirilir. Bilet satışında süni qiymət artımı hallarının qarşısını almaq üçün avtovağzal rəhbərliyi kənardan dəvət olunan nəqliyyat vasitələrinə nəzarət etmək üçün 11 nəfərdən ibarət Qiymət Komissiyası yaradıb. Əgər nəqliyyat vasitələri qiymət intizamını pozarsa və ya sərnişinlərlə kobud rəftar edərsə, həmin nəqliyyat vasitəsinin sürücüsü və sahibkar xətdən uzaqlaşdırılacaq".

YENİ MÜSAVAT
N 61 (6382) 17 mart 2016

## Rus qoşunlarının Suriyadan çıxmasının arxasındakı gizli mətləblər





**Ərəstun Oruclu:** "Rusiya Suriyada qalmaqda davam etsəydi, vəziyyət daha da gərginləşəcəkdi"

**Elxan Şahinoğlu:** "Əsədin hakimiyyətdən getməsi reallaşarsa, Ankara-Moskva münasibətlərinin əvvəlki məcrasına qayıtması ehtimalı artacaq"

**"Bütün mətbuatda dolaşan versiyalar diqqəti yayındırmaq üçündür. Mən düşünürəm ki, Putinin ordunu Suriyadan çıxartmasının bir neçə səbəbi var. Səbəblərdən biri və ən başlıcası odur ki, Rusiyanın artıq tətbiq olunan sanksiyalar, ucuz neft qiyməti fonunda bahalı hərbi əməliyyatlar imkanı yoxdur".**

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu** bu fikirləri "Yeni Müsavat"a Suriya ətrafında baş verənlər və Rusiya ordusunun bu ölkədən çıxarılması barədə prezident Putinin qərarını şərh edərkən söylədi. Ekspert əlavə etdi ki, Rusiya əslində hava zərbələri həyata keçirirdi: "Rusiya Suriyada gözləmədiyi bir dolaşıq vəziyyətə düşdü. Əvvəla, mən istisna etmirəm ki, artıq Suriya müxalifəti, ilk növbədə Azad Suriya Ordusunun döyüşən hissələri və "ƏL-Nüsrə" cəbhəsi, ola bilsin həm də Əsədə müxalif olan türkmənlər hansısa hava hücumundan müdafiə qurğuları əldə ediblər. Rusiyanın isə Suriyaya göndərdiyi təyyarələr də çoxu köhnə bombardmançılar idi. Bu təyyarələri itirmək təhlükəsi var idi ki, bu da Rusiya daxilində çox ciddi təlatümlər yarada bilərdi". **Ə.Oruclu, digər tərəfdən, hesab edir ki, Putinin qərarında Ankara terrorunun müəyyən rolu oldu:** "İstisna deyil ki, bu terror hadisəsi ilə bağlı hansısa faktlar ortaya qoyuldu. Hansı faktların qoyulduğunu deyə bilmərəm, bu, sadəcə mülahizədir. Üçüncü tərəfdən, Rusiya Suriyada qalmaqda davam edəcəkdisə, sanksiyaların da müddəti uzadılacaqdı, bundan sonra sosial-iqtisadi vəziyyət daha da gərginləşəcəkdi. Qarşıdan da parlament seçkiləri gəlir, ondan sonra prezident seçkiləri olacaq. Rusiya artıq bu reallıqlarla hesablaşmalıdır. Ona görə Putin belə bir açıqlama verdi ki, biz öz hədəflərimizə çatdıq, məqsədlərimizə nail olduq, bu səbəbdən qismən çıxırıq. Əslində qismən deyil, demək olar ki, Suriyadan tam çıxıb".

**Politoloqun fikrincə, rus qoşununu çıxartmağının qarşılığında Putin üzü payıza doğru sanksiyaların qismən götürülməsi şərtini irəli sürə bilər. Ancaq Ə.Oruclu düşünmür ki, Rusiya qoşunu Suriyadan çıxıb Ukraynada möhkəmlənəcək:** "Unutmayaq ki, Rusiyaya qarşı sanksiyalar məhz Ukraynaya görə tətbiq olunub". Ekspert rus ordusunun qafqazlarda fəallaşacağını da güman etmir: "Rusiya əgər hansısa hərbi əməliyyatlara üstünlük verirdisə, elə Suriyada qalardı, daha ordan çıxıb Qafqaza girməyin nə mənası var? Bu, çox riskli plan olardı".

Qeyd edək ki, Rusiya prezidenti administrasiyasının başçısı Sergey İvanov Rusiyanın S-400 zenit-raket komplekslərini Suriyadan çıxarmayacağını deyib.

Rusiya kosmik-hava qüvvələrinin (KHQ) Suriyadan tələsik çıxarılması xüsusən də Rusiyanın "uğurlu" bombaradmanları haqda xəbərlər fonunda tamamilə məntiqsiz görünür...

Ekspert diqqət yetirir ki, Suriyadan Rusiya qoşunlarının çıxarılması haqda qərar Donbasda münaqişənin güclənməsi anı ilə üst-üstə düşdü. Rusiya KİV-i Suriya mövzusundan rəvan şəkildə ayrıldı və yenidən Ukraynaya qayıdır. Lukaşeviç deyib ki, bu hadisə Əfqanıstanı yada salır. "Biz orada da hamıya qalib gəldik. Lakin qoşunlarımız oradan çıxan kimi ətçəkən maşın dərhal işə düşdü".

**Politoloq Elxan Şahinoğlunun fikrincə, Rusiya qoşunlarının Suriyadan çıxarılması Türkiyə-Rusiya hərbi toqquşması riskini azaldır:** "Ümumiyyətlə, Suriyada atəşkəs qorunarsa və Əsədin hakimiyyətdən getməsi reallaşarsa, Ankara-Moskva münasibətlərinin əvvəlki məcrasına qayıtması ehtimalı artacaq". Politoloqun fikrincə, bu, Azərbaycanın da xeyrinədir: "Çünki Kreml Türkiyəni düşmən kimi gördüyü indiki zamanda Rusiya hakimiyyəti Ankaranın müttəfiqlərini də hədəf alır. Məsələn, Rusiya keçmiş illərdə də Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllində maraqlı olmayıb. Rusiyanın Türkiyə ilə münasibətlərinin indiki gərgin dövründə isə Kreml daha uzağa gedərək Azərbaycana Xəzərdə əzələ nümayişi göstərir. Moskvanın Xəzərdəki yeni desant gəmiləri hədələyici mahiyyət daşıyır. Nəhayət, Kreml sahibi anladı ki, Əsədə görə Qərblə, ərəb dünyasıyla və Türkiyə ilə münasibətlərin korlanması Rusiyanın maraqlarına xidmət etmir. Ona görə Rusiyanın Suriyadakı hərbi qüvvəsini azaltması Azərbaycanın da xeyrinədir. Əlbəttə, Azərbaycan illərdir Rusiyanın xarici və təhlükəsizlik siyasətindən xeyir görmür, ancaq heç olmazsa ziyanından da özümüzü sığortalamalıyıq. Rusiya Suriyadan hərbi texnikasını Azərbaycan üzərindən çıxarır. Bunun özü ondan xəbər verir ki, Azərbaycan Rusiya ilə qarşılıqlı maraq əsasında qurulan əməkdaşlıqdan yayınmır. Rəsmi Bakının bu siyasətini Qərb, ərəb dünyası və Türkiyə də anlayışla qarşılayırlar".

❑ E.PAŞASOY

## Cahangir Hacıyevin işdən qovulmasından 1 il ötdü

### Eldar Mahmudov qudasını həbsdən qoruya bilmədi

**Hazırda həbsdə olan Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin sədri Cahangir Hacıyevin "könüllü istefa verməsindən" 1 il ötür. Cahangir Hacıyevin yolunu Bakı İstintaq Təcridxanasına salan yeyintilər haqda onun həbsindən illər əvvəl də mətbuatda xəbərlər vardı. Yeyintilərin konkret məbləğləri, yarıdan çoxu dövlətə məxsus olan bankın vəsaitlərinin kimlər vasitəsilə ələ keçirilməsinin təfərrüatları dərc olunurdu.**



Məsələn, "Yeni Müsavat"ın 2011-ci il 16 dekabr tarixli sayında "Cahangir Haciyev Beynəlxalq Bankı batırır" sərlövhəli yazıda Cahangir Hacıyevin biznes ortağı, bankdan yüz milyonlarla manat kredit alan Xaqani Bəşirovun pulları geri qaytarmadığından söhbət açılırdı. Bildirilirdi ki, X.Bəşirov kreditləri qaytarmamasına baxmayaraq, ona yenə də kreditlər verilir. Üzə çıxmışdı ki, Beynəlxalq Bankın bir illik gəliri həcmində vəsait - 48 milyon manat bankın Şəki filialı vasitəsilə X.Bəşirovla C.Hacıyevin şübhəli biznes əməliyyatlarına yönəlib.

Bu tipli xəbərlərə dövlət qurumlarının gözlənilən reaksiyası 2015-ci ilin əvvələrindən sezilməyə başlamışdı. C.Hacıyevi istefa ərizəsi yazmazdan əvvəl onun qaytarılmayan kreditlərlə bağlı problemin tezliklə həll ediləcəyi vədini verməsi də gələn məlumatlar sırasında idi. Amma bu baş vermədi və 2015-ci il fevralın 21-də manatın qəfil devalvasiyası C.Hacıyevin şəxsi planda durumunu bir qədər də ağırlaşdırdı. Məlum oldu ki, ölkə rəhbərliyinin devalvasiya qərarından 2 gün əvvəldən xəbərdar olan C.Hacıyev Beynəlxalq Bankda növbəti maxinasiyalara - maliyyə xəyanətinə yol verib. O, ətrafının sərəncamından olan iri məbləğdə manatı dövlətin sərəncamında olan dollarlarla dəyişib! Bu da dövlətə çox baha başa gəlib. Bu alverdən Cahangir Hacıyev yüz milyonlar qazansa da, Mərkəzi Bank və səhm paketi dövlətə məxsus Beynəlxalq Bank xeyli ziyan çəkib. 1-ci devalvasiyadan 3 gün sonra, fevralın 24-də Mingəçevirə səfər edən prezident İlham Əliyev konkret ad çəkməsə də "devalvasiyada bəzi möhtəkirlər, natəmiz adamlar əsassız qazanc əldə etmək üçün bu vəziyyətdən istifadə edirdilər" dedi. Aydın idi ki, ölkə rəhbəri konkret olaraq C.Hacıyevi nəzərdə tutur.

Elə belə də yellənən C.Hacıyevin kreslosu tamamilə laxladı, onun tezliklə vəzifəsindən gedəcəyi də proqnozlaşdırılırdı. Belə də oldu. Martın 17-də C.Hacıyev qəfil xəstələnməsini əsas gətirməklə istefa verdi və ardından onun həbs olunub-olunmayacağı geniş müzakirə edilməyə başladı. C.Hacıyevin həbsinə milli təhlükəsizlik naziri olan qudası Eldar Mahmudovun imkan vermədiyi bildirilirdi.

İstefasından 3 ay 3 gün sonra 20 may 2015-ci ildə Daxili İşlər Nazirliyi (DİN) Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə (MCMBİ) çağırılan C.Hacıyevdən ifadə alıb sərbəst buraxdılar. Onun ölkədən getmək istədiyi haqda xəbərlər gəldi. Lakin məlum oldu ki, C.Hacıyevi ölkədən buraxmayıblar. 2015-ci il oktyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyində həyata keçirilən qəfil əməliyyat C.Hacıyevin qudası Eldar Mahmudovun milli təhlükəsizlik(əslində isə təhlükə) naziri vəzifəsindən uzaqlaşıdırılması ilə sonuclandı. Nəticədə Cahangir Hacıyev üçün təcridxana qapıları açıldı. 5 dekabr 2015-ci ildə MCMBİ-yə növbəti dəfə çağırılan C.Hacıyev ilkin olaraq külli miqdarda əmlakı mənimsəməklə dələduzluqda ittiham olunub qandallandı. Nərimanov Rayon Məhkəməsinin qərarı ilə uzun illər Beynəlxalq Banka rəhbərlik edən C.Hacıyev 4 ay müddətinə həbs olundu. 2016-cı il martın 4-də isə C.Hacıyevin barəsində seçilmiş həbs-qətimkan tədbiri müddəti iyunun 4-dək uzadılıb.

C.Hacıyevin həbsindən sonra ona dələduzluqdan əlavə yeni ittihamlar da verilib. Eks-bankir Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə; ağır nəticələrə səbəb olduqda), 179 (mənimsəmə və ya israf etmə), 179.2.3. (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 309 (vəzifə səlahiyyətlərini aşma) və 312-ci (rüşvət vermə (aktiv rüşvətxorluq) maddələri ilə ittiham olunub.

❑ E.HÜSEYNOV

## Bank borcuna görə həbs yalnız o halda mümkündür ki…

### Ekspertlər məsələyə bir daha aydınlıq gətirir…




**Bir neçə gün öncə "Rabitəbank"dan götürülən kreditə görə zamin duran şəxsin həbs edilməsi artıq insanların təkcə iqtisadi durumlarının deyil, azadlıqlarının da bankların əlində olduğunu bir daha sübut etdi. Hüquqşünaslar kredit borcuna görə vətəndaşın həbs edilməsinin qanunla mümkün olmadığını desələr də, zaminin həbsi məsələni bir daha aktuallaşdırdı.**

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, kredit borcuna görə vətəndaşın həbsi mümkündür, lakin bu effektiv yol deyil: "Çünki 2 milyon 300 minə yaxın kredit borcu olan insan var. 2 milyard manata yaxın problemli kredit var. Söhbət istehlak kreditlərindən gedir. Siz nə qədər insanı həbs eləməlisiniz ki, bu problem həll olunsun. Bu, qeyri-effektiv yoldur. Azərbaycanda obyektiv səbəblərdən bu problem yaşandı. Ölkədə iki dəfə böyük devalvasiya baş verdi və hər iki devalvasiyadan sonra ən çox zərərçəkən kateqoriya dollarla krediti olan insanlar oldu. Bu, iqtisadi aktivliyi zəiflətdi, insanların gəlirləri aşağı düşdü, iş yerləri qapanmağa başladı və insanlar obyektiv olaraq kreditləri qaytara bilmirlər".

**Ekspertin sözlərinə görə, xarici təcrübədə müəyyən dələduzluqla kredit alıb, sonradan qaytarmayan insanlara və ya şirkətlərə qarşı cinayət işi açılması və müəyyən tədbirlər görülməsi halları var:** "Ancaq orada da həbs ən sonuncu tədbirdir. Çox zaman yüzlərlə məhkəmə işləri illərlə davam edir. Azərbaycanda kreditini geri qaytara bilməyən və həbs oluna biləcək insanların sayı o qədər çoxdur ki, onların hamısı həbsə salınsa, nə məhkəmələrdə, nə də həbsxanalarda yer qalmaz".

**Hüquqşünas Müzəffər Baxış da "Yeni Müsavat"a açıqlamasında beynəlxalq konvensiyaları əsas gətirərək, imkansızlıq ucbatından borcunu ödəyə bilməyən şəxslərin həbsinin qanunla mümkün olmadığını bildirdi:** "Bu məsələdə konkret söz demək bir qədər çətindir. Çünki Azərbaycanın tərəfdar çıxdığı Mülki və Siyasi Hüquqlar Haqqında beynəlxalq konvensiyanın 12-ci maddəsi, insan hüquqları və əsas azadlıqlar haqda Avropa Konvensiyasının 4 saylı protokolu var. Orada yazılıb ki, borc öhdəliyini icra etməməyə görə kimisə həbs etmək olmaz. Ancaq əgər kimsə borcunu ödəmirsə, artıq məhkəməyə müraciət olunubsa, məhkəmənin qətnaməsi çıxıbsa, məhkəmənin hökmünə əməl etməməyə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə görə, qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətməyə görə cinayət məsuliyyəti nəzərdə tutulur. Buna görə, 1000 manatdan 3000 manatadək cərimə və ya 320 saatdan 480 saatadək ictimai işlər və ya 2 ilədək müddətə islah işləri və ya 3 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası ilə cəzalandırılır".

**Hüquqşünas bu məsələlərdə Azərbaycan məhkəmələrinin ədalətsiz davrandığını da etiraf etdi:** "Bu səbəbdən birmənalı cavab vermək çətindir. Əgər şəxsin borc öhdəliyini yerinə yetirməməsinə görə məhkəmə qərarı qəbul edilibsə və həmin qətnamə qanuni qüvvəyə minibsə və borclu şəxs qərəzli olaraq borcu ödəməkdən imtina edirsə, bir daha vurğulayıram, "qərəzli olaraq" borcu ödəməkdən imtina edirsə, belə halda həmin şəxsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 306.1-ci maddəsinə görə cinayət məsuliyyətə cəlb edib cəzalandırmaq olar. Yəni bu halda şəxsin borcu ödəmək üçün imkanı var, lakin bundan imtina edir. Bizdə bu məsələlər çox biabırçı vəziyyətdədir. Bəzən müstəntiq özü də görür ki, şəxs həddindən artıq yoxsuldur, işləmir, əmək haqqı almır, xəstədir, ailəsini dolandıra bilmir. Ancaq götürüb onun haqqında ittiham aktı tərtib edir. Prokuror da onu təsdiq edir və göndərirlər məhkəməyə. Sonradan hakim də onun barəsində hökm çıxarır ki, cinayət məsuliyyətinə cəlb edilsin. Ancaq bu halda şəxsi cinayət məsuliyyətinə cəlb etmək olmaz. O insanlara Cinayət Məcəlləsinin 306.1-ci maddəsini tətbiq etmək qeyri-mümkündür. Çünki maddədə söhbət şəxsin qərəzli olaraq məhkəmənin qərarına əməl etməkdən imtina etməsindən gedir".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 61 (6382) 17 mart 2016

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının yekunlarına dair iclasındakı çıxışında sahibkarlıq sahəsində yoxlamalardan çoxsaylı şikayətlərin daxil olmasını, yoxlamaların sayının, eləcə də lisenziyaların sayının həddindən artıq çox olmasını, göstərilən sahədə sui-istifadə hallarını qeyd edib, belə halların qarşısının alınacağını, nəticə çıxarmayanların cəzalandırılacağını bildirib.**

# Fazil Məmmədovun müşaviri Eldar Mahmudovun yolu ilə gedir

## Bakı Vergilər Departamentinin rəisi prezidentin tapşırıqlarına məhəl qoymur; Habil Məmmədov sahibkarlardan "haqq" yığır; market sahibləri qarşısında elə bir tələb qoyulub ki...

Verilən tapşırıqlara uyğun olaraq 2015-ci oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılmasını nəzərdə tutan qanun layihəsi göndərilib. Qanun layihəsi təsdiq edilib və 2015-ci il noyabrın 1-dən etibarən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılıb.

Eyni zamanda prezident İlham Əliyev tərəfindən imzalanmış fərmanla lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi, sahibkarlıq fəaliyyəti ilə bağlı bütün lisenziyaların İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsi nəzərdə tutulub.

Ölkə rəhbərliyinin bu addımı sahibkarlığın inkişafına böyük təkan verəcək. Əlbəttə ki, bəzi dövlət qurumları sahibkarların fəaliyyətinə yersiz müdaxilə etməsələr...

Prezidentin çıxışından sonra dövlət qurumlarında qanunsuz yoxlamalar, süni əngəllər dayandırılsa da, cari ilin əvvəllərindən etibarən bəzi işbazlar yenidən köhnə adətlərinə qayıdıblar.

Ölkədə sahibkarların fəaliyyətinə ən çox əngəl yaradan nazirlik isə heç şübhəsiz ki, Vergilər Nazirliyidir.

Prezident İlham Əliyev dəfələrlə qanunsuz yoxlamalara, iş adamlarına qarşı haqsızlığa son qoymağı tələb edib. Dövlət başçısı həmçinin sahibkarları incidən məmurların ciddi şəkildə cəzalandırılacağını bildirib. Amma görünür, prezidentin tapşırığı Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin rəisi vəzifəsinin müvəqqəti icraçısı, büdcə proqnozlarının icrası üzrə nazirin müşaviri, nazirliyin audit departamentinin müdiri Habil Məmmədovun qulağına gedib çatmayıb.

Vergilər Nazirliyinin bütün işlərini idarə edən və nazir Fazil Məmmədovun "pulyığanı" hesab edilən Habil Məmmədovdan narazılıq pik həddə çatıb.

Görünən odur ki, dövlət başçısının "sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalıdır, yəni başqa sözlə, onlardan rüşvət, heç bir haqq tələb edilməməlidir. Belə olan halda bizim büdcəmiz daha da böyüyəcək, qeyri-neft sektorunun hesabına təmin ediləcək və bizim məqsədimiz bundan ibarətdir. Mən artıq müvafiq qurumlar qarşısında vəzifə qoymuşam. Bizim bütün cari xərclərimiz qeyri-neft sektorunun, vergi və gömrüyün hesabına formalaşdırılmalıdır", - sözlərinin Vergilər Nazirliyinə heç bir dəxli yoxdur.



Habil Məmmədov ötən həftənin sonlarında market sahibləri ilə mövcud vəziyyətlə bağlı müzakirələr aparıb. Maraqlısı isə odur ki, H.Məmmədov sahibkarların problemlərini dinləmək əvəzinə, sahibkarlara əlavə "tas" qoyub. Market sahiblərinə bildirilib ki, bundan sonra ödədikləri vergidən əlavə ümumi dövriyyənin 6 faizini də "haqq" ödəyəcəklər.

Bu addım ölkə başçısının start verdiyi fəaliyyəti sabotaj etməklə yanaşı, sahibkarları ölkədən küsdürür.

Həmçinin Habil Məmmədovun əmri ilə sahibkarların şəxsi vərəqlərindən külli miqdarda pul silinib. Eyni zamanda bu yaxınlarda "kameralar"ın tətbiqi gözlənilir.

Bu qanunsuz işdə Habil Məmmədova rəis müavini Nəsimi Cəfərov, Sənaye və tikinti materiallarının pərakəndə satışı üzrə audit idarəsinin rəisi Vüqar Rzayev, Digər pərakəndə ticarət sahəsi üzrə audit idarəsinin rəisi Emil Xanməmmədov yaxından yardım edib. Onlar market sahiblərinə qoyulan "xərac"ın vaxtı-vaxtında çatmasına nəzarət edirlər, əks halda, sahibkarların şəxsi vərəqlərindən pulları silib, öz qanunsuz gəlirlərini təmin edirlər.

Xatırladaq ki, ötən aylarda dövriyyənin 2 faizi tələb olunmuşdu və bir müddət sonra bu rəqəm 4 faizə qaldırılmışdı. İndi isə Habil Məmmədov keçmiş milli təhlükəsizlik naziri Eldar Mahmudovun yolu ilə gedərək sahibkarları "tas"a otuzdurmaq qərarına gəlib, ona tabe olmayanları isə müxtəlif yollarla hədələyib, qorxutmaq istəyir. Bu ssenari Azərbaycan cəmiyyətinə heç də yad deyil. Ancaq bu praktika heç də hər zaman işə yaramır; bunu praktikaya tətbiq etmək istəyənlər bəzən çox pis cəzalandırılırlar...

Son olaraq qeyd edək ki, devalvasiyadan sonra ölkədə onsuz da çətin vəziyyət yaranıb. Bakı və bölgələrdə çox sayda mağazalar bağlanıb, ticarət "ölü nöqtə"yə düşüb. Belə bir vaxtda market sahiblərinə əlavə "tas" qoymaq durumu daha da pisləşdirir. Bu tələb market sahiblərinin narazılığına səbəb olması ilə yanaşı, həm də qiymətlərin süni şəkildə artmasına gətirib çıxaracaq və nəticədə yenə sadə vətəndaşlar zərər çəkəcəklər. Eyni zamanda yüzlərlə vətəndaş işsiz qalacaq və ölkədə sosial narazılıq pik həddə çatacaq. Onu da qeyd edək ki, sahibkarlar bununla bağlı yaxın zamanlarda prezident İlham Əliyevə müraciət etməyə hazırlaşırlar.

❑ **İqtisadiyyat şöbəsi**

# Əksər partiyalar niyə Türkiyə səfirliyinin qarşısına getmədilər...

## "Arzumuz odur ki, Türkiyəmizin xoş, pozitiv günlərinə görə səfirliyin qarşısına yığışaq"

**Azərbaycan müxalifəti Ankarada baş verən terror hadisəsinə bəyanatlarla, sosial şəbəkələrdə mövqe sərgiləməklə reaksiyalar verdi. Terror hadisəsinin baş verdiyi günün səhəri bir çox müxalifət funksionerləri musavat.com-a açıqlamalarında partiya şəklində Türkiyə səfirliyinin önünə getməyi planlaşdırdıqlarını söyləsələr də, onların əksəri bu addımı atmadı.**

Bunun səbəbi nə oldu?

Məsələ ilə bağlı musavat.com-a danışan Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa bildirib ki, xüsusi tədbirin keçirilməsi nəzərdə tutulubsa, daha çox bu istiqamətdə ictimai qüvvələrin çalışmasına ehtiyac var: "Siyasətdən kənar, xalqın iştirak edə biləcəyi bir tədbirin keçirilməsi nəzərdə tutula bilər. Siyasi partiyaların isə Türkiyədə baş verən terror hadisəsi ilə bağlı mesajları var. Həmin mesajlar da rəsmi şəkildə həm sosial şəbəkələrdə, həm də ölkənin rəsmi məqamlarına çatdırılıb. Bundan o tərəfə hər hansı addımın atılması, Fransa terroruna qarşı hansısa bir davranışın təkrarlanması mənasına gəlir. Həmin zaman aksiya dövlət tərəfindən başlamışdı. Buna da digər xarici ölkələrin rəsmi təmsilçiləri qoşuldular. Əgər Türkiyədə də terrora qarşı hər hansı belə bir yürüş nəzərdə tutularsa, buna digər ölkələrdən də qoşula bilərlər. Türkiyə qardaş ölkədir. Hər kəs də Azərbaycanda bu hadisəni ürək ağrısı ilə qarşıladı. Əgər hiss olunardısa ki, onlar tərəfindən hər hansı bir dəstək aksiyası istənilir, o zaman ölkəmizdə Türkiyəyə dəstək verən böyük bir qüvvə ortaya çıxa bilərdi. Bu terror Türkiyədə birinci deyil. Ona görə də hər dəfə terror hadisəsinə görə insanların küçələrə çıxmasının bir mənası yoxdur. Sadəcə olaraq, iradə ifadə olunmalıdır və bunu da Azərbaycan cəmiyyətinin müxtəlif kəsimləri mümkün formalarda edirlər".



**Müsavat Partiyasının divan üzvü Razim Əmiraslanov isə musavat.com-a bildirib ki, onlar Türkiyə səfirliyinin qarşısına getməyi planlaşdırıblar:** "Bundan öncə də Türkiyədə terror olan zaman partiya başqanı Arif Hacılı başqa olmaqla, digər funksionerlər və gənclər təşkilatı ilə birlikdə Türkiyə səfirliyini ziyarət edib, gül dəstəsi qoyduq. Bu gün də belə bir tədbir nəzərdə tutulur. Hətta partiya Divanının iclası da terror qurbanlarının əziz xatirəsini bir dəqiqəlik sükutla yad etməyimizlə başladı. Müsavat Partiyası olaraq biz hər zaman Türkiyə xalqının yanındayıq".

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə bildirdi ki, müvafiq addımları atıblar, səfirliyin qarşısına getməyə gərək yoxdur:** "Biz məsələ ilə bağlı partiyada müzakirələr etdik. Partiya sədrinin Türkiyəyə verdiyi başsağlığı bütün ölkə mediasında yayımlandı. Eyni zamanda biz müvafiq sənədi də səfirliyə göndərdik. Əsas olan mövqedir. 50-100 nəfərin səfirliyin önünə getməsinə başsağlığı deyilmir. Heç bu düzgün metod da deyil. Lakin müxtəlif bayramlarda biz Türkiyə səfirliyinin qarşısına gedərək, orada ucaldılmış Atatürkün heykəlini ziyarət edirik. Biz öz birliyimizin mesajını veririk".

**Üzvləri gənclərdən ibarət olan "AG blok"un təsisçilərindən Tural Abbaslının da fikrini aldıq. T. Abbaslı səfirliyin qarşısına getməyin lazım olduğunu bildirsə də, bu dəfə ora gedə bilmədiklərini söylədi:** "Daha öncə baş verən terror hadisələri zamanı bizim gənclər səfirliyin önünə gedərək, başsağlığı verib, oradakı xatirə dəftərinə öz sözlərini yazmışdılar. Ancaq bu dəfə Türkiyə xalqına sosial şəbəkə və mətbuat vasitəsilə başsağlığı verdik. Səfirliyin qarşısına getməyimiz alınmadı. Ancaq təbii ki, gedərdiksə daha yaxşı olardı. Arzumuz odur ki, Türkiyəmizin xoş, pozitiv günlərinə görə səfirliyin qarşısına yığışaq".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 61 (6382) 17 mart 2016

# Rəsul Quliyevdən "OMON" hadisələri ilə bağlı yeni şok açıqlamalar...

## Keçmiş spiker: "Heydər Əliyevin yerinə Cavadov qardaşları gəlsəydi, bu, Azərbaycanın ən böyük fəlakəti olardı, ölkə müstəqilliyini itirə bilərdi"

**"OMON" (XTPD - Xüsusi Təyinatlı Polis Dəstəsi) hadisələrindən 21 il ötür. Azərbaycanda hərbi müxalifətin tamamilə sıradan çıxarıldığı və "OMON" rəhbəri Rövşən Cavadovun öldürüldüyü 1995-ci ilin mart hadisələri yaddaşlardan hələ də silinməyib.**

*21 il öncənin hadisələri ilə bağlı bugünlərdə ən çox gündəmə gələn şəxs o zamanlar Azərbaycan parlamentinin sədri olan Rəsul Quliyevdir. Eks-spikerin ünvanına ciddi ittihamlar var. Hətta onu R.Cavadovun ölümündə günahkar bilirlər. "OMON"çuların və Cavadov qardaşlarının istefasını tələb etdiyi əsas dövlət məmurlarından biri olması, zaman keçdikcə R.Quliyevə qarşı iddiaların sayının artmasına səbəb olur.*

*Hazırda Amerikada mühacirətdə yaşayan R.Quliyevlə internet üzərindən "OMON" hadisələri ilə bağlı söhbət etdik.*

***- Rəsul müəllim, o vaxt dövlətin ikinci şəxsi olaraq 21 il öncənin bu günlərini necə xatırlayırsınız?***

- 1993-cü ilin fevralından 1995-ci ilin aprelinə qədər olan illər, aylar və günlər Azərbaycanın yaşadığı ən ağır dövr idi. 1993-cü ilin aprelindən Kəlbəcərin işğalı ilə başlanan proses həmin ilin avqustunda 20 faiz torpaqlarımızın işğal olunması ilə yekunlaşmışdı. Ardınca 1994-cü ilin sentyabrında bağlanmış neft müqaviləsindən narazı qalan Rusiyanın oktyabrda, Türkiyənin 1995-ci ilin martında dövlət çevrilişinə cəhd etməsi çox həyəcanlı günlər idi. Tək soruşduğunuz dövrü yox, əvvəlki hadisələri də yaxşı xatırlayıram. Bilirsiniz, həyatı boyu çoxsaylı səhvlər buraxmayan, hər problemi düzgün həll edən dahi siyasətçilər olmur. Kimlərsə bunun əksini iddia edirsə, sadəcə olaraq, əbləhdir. Dahilər yalnız dəqiq elmlərin alimlərindən ola bilər. Siyasətçilər isə ancaq diktatura rejimlərində təkbaşına istədiyi məsələni həll edə, "dahilik" statusuna layiq görülə bilər. Normal rejimlərdə tək adamın yox, komandanın rolu böyükdür.

***- "OMON" hadisələrinin üstündən keçən bu müddət ərzində hadisələrlə bağlı ən çox ittihamlara məruz qalan şəxslərdən biri sizsiniz...***

- Burada qeyri-adi bir şey görmürəm. Həmin dövlət çevrilişinin qarşısını almaq üçün ən qətiyyətli addımlar atan iki şəxsdən biri mən olmuşam. Və o hadisələri törədənlərin ssenarisinin iştirakçıları darmadağın olmaqlarında həmişə məni ittiham edəcəklər, ancaq tarixin obyektiv analizi həmişə mənim tərəfimdə olacaq.

***- Rövşən Cavadovun məşhur videosu var. Orada deyir ki, Heydər Əliyev və Rəsul Quliyev istefaya getməsə, onları özüm istefaya göndərəcəm. Hədəfdə olmağınıza səbəb nə idi?***

- 1995-ci ilin martında baş vermiş hadisələr faktiki 1994-cü ilin oktyabrında başlanmış dövlət çevrilişi cəhdinin davamı idi. Hər iki hadisədə Surət Hüseynov və Rövşən Cavadov oyunçular deyildi, sadəcə, oynayanların onları ferz edəcəklərinə söz verdikləri "peşka"lar idi. Mart hadisələrinin daha qanlı qurtarmasının səbəbi isə Hüseynovdan fərqli olaraq, Cavadovun komandasında paranoik qardaşının olması oldu *(Mahir Cavadovu nəzərdə tutur-red.)* Heydər Əliyev və mənim neft kontraktlarının bağlanmasında Qərb kompaniyalarına üstünlük verməyimiz o dövrdə finans imkanları məhdud olan Rusiya və Türkiyənin kənarda qalması, bu ölkələrin bəzi dairələrini *(Rusiyada hərbiçiləri, Türkiyədə baş naziri və onun biznes partnyorlarını)* qane etmirdi. Konkret mart hadisəsində Rövşən Cavadovun bu şüarı elə bu səbəbdən səsləndirildi, yəni ağasının komandası ilə. "Getməsələr, özüm göndərəcəyəm" kimi fikirlərə gəldikdə isə, bu, sadəlövhlük idi. 500 silahlı ilə o, necə məni istefaya göndərə bilərdi?! İnsanın bədbəxtliyindən biri də özündən müştəbeh olmasıdır.

**"Hakimiyyətdən getməmək üçün bəzi addımları atmamağım buraxdığım ən ciddi səhvlərdən biridir"**

***- Elçibəy hakimiyyəti dövründə Rövşən Cavadov və siz hakimiyyətdə təmsil olunmusunuz. Bəlkə həmin zamandan aranızda yaranan ədavət buna səbəbdir?***

- Rövşən Cavadovla mən az qala dostluğa yaxınlaşan bir münasibətdə olmuşuq. Hələ o, "OMON" komandiri olandan biz tanış idik. Bilirsiniz, o dövrlərdə Cavadov Qarabağda nələrsə etmək istəyirdi. Qarabağda nəsə bir iş görmək istəyən elə bir insan yoxdur ki, mən ona kömək etməyim. Ona görə də həm o dövrdə, həm də ondan sonra Qarabağ döyüşlərində yaralanmış, xəsarət almışları xaricə müalicəyə qədər göndərirdim. Rövşən Cavadovun Heydər Əliyev hakimiyyətə gələndən sonra daxili işlər nazirinin 1-ci müavini qoyulması da mənim təqdimatımla olubdur. Onunla heç vaxt heç bir konfliktim olmayıb. Əksinə, həmişə səhv addımlardan qorumağa çalışmışam. Elə mart hadisələrində də onunla dil tapıb qansız-qadasız bu qarşıdurmanı həll edə bilərdim. Təəssüf ki, onun üzərində sözün əsl mənasında paranoik olan qardaşının təsiri güclü idi. Onun paranoik olmasını öyrənmək elə də çətin məsələ deyildir, işlədiyi yerlərdən soruşsanız, əmin ola bilərsiniz.

**"Hökumətdə işləyənlərdən, müxalifətdə olanlardan Cavadovlara zəng edib yaltaqlananlar vardı"**

***- Sizcə, "OMON" hadisələri baş verməyə bilərdimi, problemin həlli yolunu tapmaq mümkün idi?***

- Hər halda, bu məsələni azı 10 gün qan tökülmədən həll etmək üçün hər gün çalışırdım. Yəni onların qaldırdıqları istənilən məsələni müzakirə etmək, razılığa gəlmək və ondan sonra silahları təhvil vermək istiqamətində işlər görmək üçün xeyli çalışmışam. Ancaq təəssüf ki, bu cəhdləri onlar və ağaları zəiflik kimi qəbul edirdilər. Bu günə-sabaha ölkəni qoyub qaçacağımıza inanırdılar. Həm hökumətdə işləyənlərdən, həm də müxalifətdə olanlardan onlara olan zənglər və yaltaqlanmalar da elə fikrə düşmələrinə kömək edirdi.

***- İl yarımdan sonra özünüzün də hakimiyyətdən gedəcəyinizi bilsəydiniz, "OMON" hadisələrində hakimiyyəti "xilas" edərdinizmi? Ümumiyyətlə, mart hadisələrinə görə nə zamansa peşman olmusunuz? Rövşən Cavadovun istəkləri həyata keçsəydi, bəlkə də sizin üçün daha müsbət olardı...***

- Həyatım boyu buraxdığım çoxsaylı səhvlərin içərisində mart hadisələrində tutduğum pozisiya yoxdur. Mart hadisələri təkrar baş versə, yenə eyni addımları atardım. Ola bilər, Cavadovu qardaşından izoliyasiya etmək üçün daha çox cəhdlər edərdim. Ancaq zorla hakimiyyəti dəyişməyin (mən ümumiyyətlə zorakılığa qarşıyam) əleyhinəyəm. 1993-cü ilin iyununda, 1994-cü ilin oktyabrında da eyni pozisiyadan çıxış edirdim. Heydər Əliyevin gedib, onun yerinə Cavadov qardaşlarının gəlməsi Azərbaycanın ən böyük fəlakəti olardı. Ölkə real müstəqilliyini itirərdi. Rövşən Cavadovun elə bir istəyi də yox idi. Ümumiyyətlə, heç bir liderlik keyfiyyətinə malik olmayan, qardaşının sayıqlamalarına inanan, Türkiyənin bəzi dairələrinin subyektiv fikirlərini analiz etməyi bacarmayan bir şəxs necə sistem yarada bilərdi, bu, qeyri-ciddidir. Mən bir il yarımdan sonra getməmək üçün müəyyən tədbirlər görə bilərdim, sözsüz dinc yolla, ancaq bunu etmədim, bu da buraxdığım ən böyük səhvlərdən biridir.



**"Dövlət çevrilişinin qarşısını almaq üçün ən qətiyyətli addımlar atan iki şəxsdən biri mən olmuşam"**

***- O zaman Cavadovla siyasi müxalifətin əlaqələri var idi? Sizlərdə müxalifətin "OMON"-a dəstək verməsi ilə bağlı xəbərlər, faktlar var idi?***

- Qeyd etdiyim kimi, o vaxtkı və indi də fəaliyyətdə olan bir çoxları Cavadovla telefon danışıqlarında iştirak ediblər. Sözsüz, bizim bunlardan xəbərimiz var idi. Hakimiyyətə gəlmək arzusunda olan bəzilərinin bu sadəlövh, primitiv adamın qarşısında məddahlıq etmələri məndə ikrah hissi doğururdu.

***- Rövşən Cavadov yaradılacaq Dövlət Şurasında Elçibəy və Mütəllibovun təmsilçiliyini tələb edirdi. Nədən? Bəlkə bu şəxslər ona gedən proseslərdə dəstək verirdilər? "OMON" hadisələrində Rövşən Cavadovu çıxıb, digər iştirakçıları bağışlamaq mümkün deyildimi? Niyə başqa yola əl atıldı?***

- Rövşən Cavadovun yaradacağı Dövlət Şurasında Mütəllibovun (Rusiyanın nümayəndəsi) Elçibəyin (Türkiyənin təmsilçisi) olması tələbi sözsüz həm ağaları, həm də adları çəkilənlərlə razılaşdırılmışdı. Ancaq onların iştirakı kukla iştirakı olmalı idi. Baş prokuror qardaşı, ölkənin bütün silahlı qüvvələrinin baş komandanı Rövşən Cavadov olmalı və bu yolla idarə etməli idilər. Əlbəttə, belə bir rejim işləyə bilməzdi. İlk növbədə məhdud ağıllı Cavadovların idarəçiliyi zorakılıq üzərində qurulacaqdı. İkincisi, Türkiyə ilə Rusiyanın maraqları toqquşacaq və ölkədə yeni vətəndaş müharibəsi başlayacaqdı.

***- Hazırda həbsxanalarda 3 ömürlük "OMON"çu məhbus qalıb. Elçin Əmiraslanov, Səfa Poladov və Arif Kazımov...***

- Cavadovların məğlubiyyətindən sonra döyüşdə iştirak etmiş «OMON»çulara qarşı çox da ağır cəzaların verilməməsini tələb edirdim. Düşünürdüm ki, bir çoxları, sadəcə olaraq, cavanlıqdan, savadsızlıqdan hadisələrə düzgün qiymət verə bilməyiblər. Onların həyatını məhv etmək lazım deyildi. Həmin ömürlük zindanda oturanlardan Əmiraslanov bu gün yaşamasına görə mənə borcludur. O, Qarabağ müharibəsində başından ağır yara almışdı və ölməyə məhkum idi. Onu Avstriyaya göndərib başında çox mürəkkəb cərrahiyyə əməliyyatları elətdirib yenidən həyata qaytarmışdım. Düzdür, sonralar mənim əleyhimə çox xoşagəlməz sözlər deyirdi, amma bu insanların hər üçünün azadlığa buraxılması düzgün addım olardı.

**"Azərbaycanda dövlət çevrilişinə cəhd olacağı xəbərini Heydər Əliyevə Süleyman Dəmirəl 14 mart günü çatdırmışdı"**

***- "OMON" hadisələrində hakimiyyəti Türkiyənin Bakıdakı səfirinin uyarması barədə iddialar var. Əgər belədirsə, o zaman Türkiyə hökuməti Cavadovu niyə dəstəkləməli idi?***

**"Mart hadisələrinin bu cür faciəvi yekunlaşmasının əsas səbəbkarı Rövşənin paranoik qardaşıdır"**

- Türkiyə səfirliyi birbaşa dövlət çevrilişinin əsas iştirakçılarından biri idi. Keçmiş səfir Karamanoğlu bu işə rəhbərlik edirdi. Cavadov atdığı addımları onunla, o isə Ankara ilə razılaşdırırdı. O vaxtkı Türkiyə hökuməti neftdən onlara verilən payın az olduğundan narazı idi. Bu hadisələr baş verəndən bir neçə ay sonra Süleyman Dəmirəl iki ölkə arasında əlaqələri qaydaya salmaq üçün Heydər Əliyevdən Tansu Çillərin Azərbaycana səfərinə razılıq aldı, guya arada heç bir şey olmayıb, dostluq, qardaşlıq davam edir. Tansu Çillər mənə onun planlarını dağıtmış adam kimi nifrətlə baxırdı. Sözsüz, mən də öz münasibətlərimi o qədər də gizlətmək niyyətində deyildim.

**"Tansu Çillər mənə onun planlarını dağıtmış adam kimi nifrətlə baxırdı"**

***- Elçibəy hakimiyyətinin devrilməsində Rusiyanın təsirinin olması barədə iddialar var. O zaman Rusiya Cavadovu dəstəkləməklə nəyə nail olmaq istəyirdi?***

- Rusiya Cavadovu dəstəkləmirdi, onun əli ilə öz adamını gətirmək və sonradan hakimiyyəti tamamilə ələ almaq istəyirdi. Və son nəticədə neft kontraktını pozub sonra yenidən öz xeyrinə həll etmək istəyirdi.

***- "OMON" hadisələrində Türkiyənin də əlaqəsinin olduğunu dediniz. Həmin dövrdə Türkiyə ilə Azərbaycan hakimiyyətlərinin yaxın əlaqələri var idi. Bu necə mümkün ola bilərdi? Neft amili onları bizə qarşı qoymuşdu?***

- Türkiyə ilə Azərbaycan hakimiyyətinin normal əlaqələri var idi. Eyni əlaqələr Rusiya ilə də mövcud idi. Əgər siz yaxın əlaqələr dedikdə türk hərbiçilərinin Azərbaycan əsgərlərini hazırlamasını nəzərdə tutursunuzsa, bu, doğrudur. Ümumiyyətlə, türk generalları və zabitləri əhval-ruhiyyələri çox yüksək olan qeyrətli və namuslu insanlar idi. Sözsüz ki, bu çevrilişin tərəfdarları, izah etdiyim kimi, Türkiyə hökuməti deyildi, baş nazir Tansu Çillər və onun ətrafında olan bəzi insanlar idi. Azərbaycanda dövlət çevrilişinə cəhd olacağı xəbərini Türkiyənin o zamankı prezidenti Süleyman Dəmirəl Heydər Əliyevə 14 martda çatdırmışdı. O dövrdə Dəmirəllə Çillər bir-birilərinə düşmən pozisiyada dayanmışdılar, baxmayaraq eyni partiyadan idilər. Hərbçilər isə tam müstəqil siyasət aparırdılar.

❑ **Cavanşir ABBASLI**

# Digər türk ölkələri Türkiyəyə niyə dəstək vermədi?

## Şahin Cəfərli: "Türk dünyasının ortaq reaksiya və reflekslərindən danışmaq tezdir"

**Ankarada baş verən 13 mart terror hadisəsindən sonra Türkiyənin yanında türk dövlətlərinin liderləri görünmədilər. Lakin diqqət etsək, xristian dövlətlərində bu cür hadisələr zamanı Qərb ölkələri tərəfindən fərqli reaksiyaların şahidi oluruq. Misal üçün, Parisdə baş verən terror hücumlarından dərhal sonra Qərb dövlətləri Fransanın yanında olduqlarını nümayiş etdirərək, baş verən terror hadisəsini pislədi, bunun bütün Qərb dünyasına qarşı hadisə olduğunu vurğuladılar.**



Ekspertlər hesab edirlər ki, məhz bu kimi məqamlara görə Fransadakı terror olayı bütün dünyada anıldı. Güclü təbliğat nəticəsində insanlar bu hadisəni pisləyib, terror qurbanlarının xatirəsini kütləvi şəkildə küçələrdə yürüşlər etməklə, ölkə səfirliyinin qarşısına gül dəstələri qoymaqla andılar.

Ankarada isə son beş ayda üç partlayış baş verdi. Nəticədə azı 160 nəfər dünyasını dəyişdi, 600-dən çox şəxs yaralandı. Belə olan təqdirdə sonuncu partlayışdan sonra türk ölkələrinin liderləri Türkiyəyə nə üçün dəstək vermədilər?

**Məsələ ilə bağlı musavat.com-a danışan politoloq Şahid Cəfərli bildirdi ki, Fransada və ya hər hansı digər Avropa ölkəsində baş verən terror avropalılar tərəfindən təkcə həmin ölkəyə qarşı hücum kimi qiymətləndirilmir:**

"Bu, ümumilikdə Avropa mədəniyyətinə, Avropa və Qərb dəyərlərinə hücum kimi qəbul olunur. Avropanın və Avropa kökənli insanların qurduğu ABŞ-ın həmrəyliyinin təməlində bu dayanır. Üstəlik, onu da nəzərə almaq lazımdır ki, bu gün Avropa İttifaqı adlı vahid məkan var və onun daxilində çox sıx inteqrasiya prosesləri gedir. Türk dünyasında isə fərqli situasiya mövcuddur. Ortaq tarix və mədəniyyət var, lakin ortaq türklük şüurundan və siyasi inteqrasiyadan bəhs etmək mümkün deyil. Rus imperiyası və sovet hakimiyyəti xüsusən Orta Asiyada dərin izlər buraxıb. Mən bütün türk respublikalarını yaxından tanımasam da, əminəm ki, özünü türk sayan insanlar həmin respublikalarda azlıqdadır. Başqa bir önəmli məqam isə Türkiyə ilə qarşılıqlı əlaqələrin səviyyəsi və ümumən Türkiyəyə münasibətdir".

**Ekspert bildirdi ki, Azərbaycan istisna olmaqla, digər türk cümhuriyyətlərinin Türkiyə ilə siyasi, iqtisadi, mədəni və hərbi müstəvilərdə yüksək səviyyəli münasibətləri yoxdur:** "Qazaxıstan və Qırğızıstan Rusiyaya siyasi-iqtisadi baxımdan daha yaxındır, hər iki dövlət Moskvanın patronajlığı altında qurulan inteqrasiya strukturlarında - Avrasiya İqtisadi Birliyində və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında iştirak edir. Düzdür, hər iki ölkənin Türkiyə ilə münasibətləri yaxşıdır və inkişaf edir, lakin bunu Rusiya ilə münasibətlərin səviyyəsi ilə müqayisə etmək olmaz. Özbəkistana gəldikdə isə bu ölkə Qazaxıstan və Qırğızıstanla müqayisədə daha müstəqil siyasət yeridir, lakin uzun illərdir Türkiyə ilə əlaqələrdə soyuqluq var. İslam Kərimovun Türkiyəni onu devirmək cəhdində ittiham etdiyi dövrdən bəri əlaqələrdə istiləşmə yaranmayıb. O, yəqin ki, Türkiyəyə şübhə ilə yanaşmağa davam edir və yaxud Türkiyəni bağışlaya bilmir. Türkmənistan-Türkiyə münasibətləri də son vaxtlar sürətlə inkişaf edir. Hətta bu ölkə Azərbaycan və Türkiyə ilə üçtərəfli əməkdaşlıq formatında iştirak etməklə iqtisadi inteqrasiya məsələsində digərlərindən daha çox önə çıxıb. Lakin maraqlıdır ki, Qazaxıstan və Qırğızıstan Türk Şurasında təmsil olunsa da, Türkmənistan bu quruma daxil olmağa tələsmir. Səbəb aydın deyil. Özbəkistan isə bu tip təşəbbüslərdən tamamilə uzaq durur".

**Şahin Cəfərli onu da qeyd etdi ki, Orta Asiya respublikalarının siyasətində dövlət başçılarının şəxsi düşüncələri və əhval-ruhiyyələri həlledici rol oynayır:** "Onlar bəzən uşaq kimi şıltaqlıq nümayiş etdirirlər. Məsələn, Kərimovun küskünlüyü illərdir bitmir və anlamaq olmur ki, onun könlünü almaq üçün Türkiyə nə etməlidir. Belə bir vəziyyətdə türk dünyasının ortaq reaksiya və reflekslərindən danışmaq hələ tezdir".

❑ **Əli RAİS**

# Bu dünyada yaxşı müsəlman olmaq asandırmı?



**Hüseynbala SƏLİMOV**

**B.Obamanın R.T.Ərdoğanı "Keçmişdə yaxşı müsəlman idi" deyə səciyyələndirməsi bizə olduqca maraqlı göründü. Əvvəla, ona görə ki, onun sözlərində həqiqət elementləri heç də yox deyildir - Türkiyənin siyasi sistemi və cəmiyyəti nə qədər imkan verirsə, Ərdoğan bir o qədər avtoritar liderdir.**

Üstəlik, o, daim Osmanlı liderlərinə apelyasiya edir və ölkəni M.K.Atatürk ənənələrindən kənara çıxarmağa çalışır...

Amma bunlar məsələnin məğzi deyil. Biz bu sətirləri yazanda Ankarada növbəti dəhşətli terror aktı baş vermiş, 37 nəfər həlak olmuşdu. Ona görə də ağlımızdan keçən ilk sual bu oldu ki, belə dəhşətləri görən insanın beynindən heç "yaxşı müsəlman" olmaq fikri keçə bilərmi?

Bu dəhşətləri görəndə düşünürsən ki, siyasi lider üçün bütün üsullar və vasitələr məqbuldur, təkcə ona görə ki, belə dəhşətlərin kökü kəsilsin, günahsız və dinc insanlar həlak olmasın. Mən Obamanın "yaxşı müsəlman" deyəndə nəyi nəzərdə tutduğunu anlayıram. Amma bəzi nüanslar var...

Türkiyə cəmiyyəti yaxşı müsəlmanlar idi. Amma buna Avropanın reaksiyası nə oldu? AB - nin rəhbərliyinə keçən hər kəsin sözü bu oldu ki, Türkiyənin bu quruma üzv olmasının qarşısını alacaq...

Müsəlman dünyasında baş verən proseslərlə bağlı təkcə Amerika politoloqları, tutaq ki, elə F.Zaxaria maraqlanmır, biz də maraqlanırıq, düşünürük, daşınırıq və bir qənaət əldə etməyə cəhd edirik...

Məsələn, İŞİD-dən, əl-Qaidədən, Hizbullahdan söz düşəndə deyirik ki, onların islama aidiyyəti yoxdur. Mənim də bu fikirləri təkzib etmək fikrim yoxdur. Hesab edirəm ki, islam belə terror təşkilatların ideologiyası adlanmaqdan daha üstün və ülvidir. Amma çox kiçik bir nüans vardır. Nə İŞİD, nə də ki, əl-Qaida bir nəfərdən, üç nəfərdən ibarət deyil, onlar çoxdur...

Niyə belə olur? Niyə müsəlmanların bir qismi siyasi mübarizə üsulu kimi məhz dəhşətli terroru seçir? Niyə onlar qurtuluş yolu kimi orta əsrlər xurafatına üstünlük verirlər? Düşünməyin ki, bu sualların asan cavabı var, yox, belə deyil, bunlar çətin suallardır. Onlar hələ də cavabların gözləyirlər...

Zənnimcə, ən düzgün cavab budur ki, siyasi, iqtisadi və texnoloji cəhətdən önə çıxmış güclü Qərb yaxşı müsəlman olmağı stimullaşdırmır, əksinə, neqativ tendensiyaların güclənməsinə rəvac verir...

Türkiyə ilə bağlı çox narahatıq. Yəqin ki, hamı bizim bu narahatlığımızı bölüşər. Türkiyə yeganə demokratik müsəlman ölkəsidir. Bu ölkənin hansısa bir mənada sarsılması İŞİD-çilərin, əl-Qaidaçıların mövqelərinin güclənməsi və onların ideologiyaların daha "haqlı" çıxması demək olardı...

Həm də belə bir acı perspektiv müsəlman dünyasında demokratik dövlətçilik arzuları ilə yaşayan yüz minlərlə insanın ümidlərinin üstündən tamamilə xətt çəkmək olardı...

Bəzən mənə elə gəlir ki, Qərb də, elə digər dövlətlər də islam üçün, müsəlman dünyası üçün bir qəlib hazırlayıb. Hamını o qəlibin içinə qovurlar ki, sonda da "Gördünüz? İslam, bax, budur!" deyə bilsinlər.

Amma islam budurmu? İŞİD və yaxud əl-Qaida doğrudan da əsl islamı təmsil edirmi? Əlbəttə ki, yox...

Niyə qoca Qərb bəzi müsəlman dövlətlərində, eləcə də islamın özündəki yaxşı cəhətləri və ülvi prinsipləri israrla görmək istəmir? Düşünmürəm ki, bunun səbəbi yalnız və yalnız stereotiplərdir. Yox, bu, adi məişət stereotiplərindən də qəliz məsələdir.

Ağlıma gələn budur ki, onlar sadəcə, müsəlman dünyasının inkişafını arzulamırlar. Bir daha deyirəm ki, ola bilsin, burada stereotiplərin də müəyyən qədər rolu var, amma onlar həlledici deyil...

Həlledici olan budur ki, islam aləmini daim müharibə içində, qovğada, savaşda görmək istəyirlər. Bəlkə də ona görə ki, onlar islamın timsalında öz dini baxışlarının, əqidələrinin ən böyük və ən güclü opponentini görürlər. Bu nə qədər qəribə olsa da, belədir...

Onları bütpərəstlik, hətta artıq iudaizm də qorxutmur. Amma islam qorxudur. Mənə elə gəlir ki, bu, islamın daha dünyəvi olması və islamda dünyəvi ilə ruhani aləm arasındakı üzvi tarazlığın olması ilə bağlıdır...

Burada yadıma bir Amerika filmindən kiçik epizod düşür. Deməli, qul sahibi qullara "İncil"dən hissələr oxuyur, sonra da onları ağır işgəncələrlə cəzalandırır, özü üçün işləməyə vadar edir...

Demirəm ki, "İncil"də bunun bəraəti var. Yox, "İncil" də "Yaxınını sev!" və hətta "Düşməni sev!" deyir. İslamda isə məsələ daha kəskin qoyulub - islam quldarlığı, ümumiyyətlə, qəbul etmir...

Belə misalları çox gətirə bilərdik. Fəqət, buna elə lüzum yox. Bircə onu deyəcəm ki, bu dünyada yaxşı müsəlman olmaq olduqca çətindir. Ona görə ki, qoca Qərb israrla bu yaxşılığı görmək istəmir...

# Müsavatdan antiböhran koalisiyasına "yox" cavabı

## "Dəvət eləmək mədəniyyəti dəvət edəndən, gəlib-gəlməmək də dəvət ediləndən asılıdır"

**Müsavat Partiyası müxalifətin antiböhran koalisiyasının debat təklifini qəbul eləməyib. Bu barədə "Yeni Müsavat"a açıqlamasında Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı məlumat verib. Onun dediyinə görə, başqan Arif Hacılı Divanın iclasında antiböhran koalisiyasının təmsilçisi Sərdar Cəlaloğlunun ötən həftə onunla görüşü və debat təklifi barədə ətraflı məlumat verib. Məsələ Müsavat Divanında müzakirə olunub və debat təklifinin qəbul edilməsi məqsədəuyğun sayılmayıb.**

Antiböhran koalisiyasının Müsavatın mənfi cavabına reaksiyasına gəldikdə, **Sərdar Cəlaloğlu** öncə bildirdi ki, Müsavatdan onlara məsələni müzakirə etdikləri və Divanın müsbət qərar qəbul etmədiyi barədə heç bir rəsmi cavab verilməyib: "Bizə kənardan məlumat çatıb ki, Müsavat bizim debat təklifimizi qəbul etməyib".

**ADP sədri Müsavatın bu addımını normal qarşıladıqlarını dedi:** "Dəvət eləmək mədəniyyəti dəvət edəndən, gəlib-gəlməmək də dəvət ediləndən asılıdır. Yəqin ki, Müsavat rəhbərliyi bu cür diskussiyaları vacib hesab eləmirlər. Ya da bu diskussiyalarda siyasi maraqlarını təmin etməyəcəkləri qərarına gəliblər. Ona görə də imtina ediblər. Biz bunu normal qəbul elədik. Təkliflərimizi qəbul eləmədilər deyə, onlarla savaşası deyilik. Biz düşünürdük ki, təxminən 300 nəfərin qarşısında bir nəfər Müsavatdan, bir nəfər isə koalisiyadan olan təmsilçinin iştirakı ilə ölkədəki ictimai-siyasi vəziyyət, böhranlı durum, müxalifətarası münasibətlər müzakirə olunsun. Zala yığışacaq 300 adam, iki nəfər isə onların qarşısında otursun, suallar ünvanlansın, suallara cavablar verilsin, tərəflər bir-birinin mövqeyinə münasibət bildirsin. Müsavat isə bunu məqbul hesab etmirsə, biz başqa nə edə bilərik ki".

Qeyd edək ki, antiböhran koalisiyasında KXCP, AXP, ADP, VİP, AzDP, ALDP, BAP, Azadlıq Partiyası, GAP, AG blok və digər müxalifyönlü təşkilatlar, QHT-lər təmsil olunur.

Antiböhran koalisiyası Müsavatdan başqa Milli Şuraya və YAP-a da debat təklifi verib. Lakin həmin qurumlardan rəsmi cavab gəlməyib.

❑ **E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 61 (6382) 17 mart 2016

# Paxlavanın gödəlməsi



Zamin HACI
zaminhaci@gmail.com

**Azərbaycanlı məhbus intihar edib, dövlət bu məsələyə qarışıb, həmin türmənin azı 6 işçisinə cəza verilibdir. Qorxmayın və dövlətçiliyimiz sarıdan qəti narahat olmayın, hadisə Rusiyada olmuşdur. Bizdə dustağın nəinki intiharı, heç döyülüb öldürülməsi də kimsənin vecinə deyildir. Dünyanın bəyənmədiyi, repressiv rejim saydığı Rusiya belə insan haqları məsələsində bizə örnək ola bilərmiş, gör nə gündəyik.**

Yeri gəlmişkən, Rusiyada ukraynalı hərbi təyyarəçi Nadejda Savçenkonun məhkəməsi keçirilir, telejurnalistlər az qala o iclaslardan canlı yayım verirlər. Bizdə isə jurnalist Xədicə İsmayılın məhkəməsinə nəinki jurnalistləri, az qala vəkilləri də buraxmırdılar. Totalitarizmin balacası həm də çox xırdaçı olurmuş.

Rusiya ilə müqayisə mövzusu düşmüşkən, keçən aydan bir maraqlı açıqlama yadımda qalıb. Milyarder Araz Ağalarov devalvasiyadan şikayətlənib demişdi ki, indi Rusiyada stadion tikmək onun üçün çətindir. O, Rostov və Kalininqrad şəhərlərində 2 stadion tikir. Sitat: "Rublun devalvasiyası hər şeyi alt-üst etdi. Devalvasiya üzündən podratçılardan heç biri təsdiq olunmuş büdcə ilə bu işlərin öhdəsindən gələ bilməyəcək. Hazırkı kursla bir obyektin tikintisi təxminən 200 milyon dollara başa gəlməlidir. FİFA tarixində belə şey olmayıb. Bundan əvvəl çempionatı qəbul edən Braziliyada bir stadionun tikintisi 400 milyon dollara başa gəlmişdi. Hələ onlarda iqlim şərtləri bizdən xeyli yaxşıdır".

Öz ölkənə yadlaşmaq bax budur. Araz müəllim əgər Azərbaycanı yaxşı tanısa bilməli idi ki, yapist dostları "Koroğlu" metrosu yaxınlığındakı futbol stadionunu rəsmi rəqəmlərə görə 750 milyon dollara, qeyri-rəsmi araşdırmalara görə isə hətta 1 milyard dollara tikmişdilər. Bəs sən hansı haqla "tarixdə belə şey olmayıb ki, stadion 200 milyon dollara başa gəlsin" deyirsən? Ar olsun! Vətəni unudanlara, tarixini bilməyənlərə manqurt deyilir! Gəl arada heç olmazsa doğulduğun Nardaranda açılan Bilik Evində kitab arası aç, Kamal Abdullanın mühazirələrini dinlə.

Örnək üçün, mən vətənimizi o qədər yaxşı tanıyıram ki, kiçik bir əlamətdən hansı rayonda kimin icra başçısı olduğunu əzbər deyərəm. Dünən internetdə xəbər gördüm: "Səbayel rayonunda ən böyük paxlava bişirilib, sakinlər onu yeyiblər". İndi buna əsasən rayonun icra başçısının Eldar Əzizov olduğunu gözüyumulu anlamaq lazımdır, çünki Eldar müəllim hansı rayonda, hansı şəhərdə raykom katibi olsa, orda mütləq ən uzun paxlava, ən dərin tort kimi şirin işlər görür. Gəncədə də belə olub, Sumqayıtda da. Əgər sabah Nyu Yorkun mərkəzində əkiz Paxlava qülləsinin açılışını CNN canlı göstərsə, mən barmağımı dişləmədən məsələni anlayacağam: deməli, Eldar müəllim BMT sədri seçilmişdir! *(Buna imkanımız da var, bir ara Təhlükəsizlik Şurasının 15 müvəqqəti üzvündən biri Azərbaycan olmuşdu, həmin 6 ayda Yer kürəsində bir uşağın fırtıqlı burnu qanamadı).*

Doğrudur, Araz müəllimi Rusiyada vuran devalvasiyanın bir quyruğu də Səbayelə çatıb və Eldar müəllimi vurub, bu, rayondakı paxlavanın ərazisindən aydın sezilirdi. Şəklini vermişdilər, heç 1 metrlik olmazdı. Halbuki, manatın yaxşı vaxtlarında Eldar müəllimin Sumqayıtda bişirdiyi paxlavanın uzunluğu 21 metr olmuşdu! Gəncədə bişirdiyi tort isə kosmosdan görünürdü.

Sonda bir vacib rayon xəbərini də çatdırım, çünki qəlbimi fərəhləndirən xəbərdir. Binəqədi rayonu Bakıda ən çox cinayət törədilən rayon olaraq 1-ci yerə çıxmışdır! Buna görə ispalkomun sədri Xaləddin müəllimə bir Binəqədi sakini kimi dərin təşəkkürümü bildirirəm, bu arzuya rayonda məskunlaşan Şuşa və Zəngilan qaçqınları da qoşulur. Çünki Xaləddin müəllim rayonda çoxlu otluq, təpəlik düzəltməsəydi, cinayətkarların gizlənib iş görməsi çətin olardı. Binəqədi YAP-ın binası qabağında hətta qamışlıq yaradılıb, istəsən orda qaban ovuna çıxmaq mümkündür, bu isə ov mövsümü olmayanda brakonyerlik sayılır.

Hamının uzun paxlavası olmaz, hər rayon bir şeylə fərqlənməlidir. İndi söz əlaqədar rayonlarındır.

## Prezident Əliyevin Türkiyə səfərinin mühüm uğuru




# Türk generalları Azərbaycanda vəzifəyə gətirilir - şok iddia

### Bakı-Ankara hərbi müttəfiqliyi yeni mərhələyə keçir; qardaş ölkənin yüksək çinli zabitlərinin azı, üç istiqamət üzrə vəzifələrə yerləşdirilməsi mümkün sayılır; bu, ortaq düşmənlərə ciddi bir xəbərdarlıq mesajı olardı...

**Azərbaycan prezidenti İlham Əliyevin budəfəki Türkiyə səfəri məxsusi özəllikləri ilə yadda qaldı və yəqin ki, hələ bir müddət də yerli və xarici siyasi şərhçilərin təhlil mövzusu olacaq. Səfər əsasən 3 mühüm nəticə-mesajı ilə əhəmiyyətli hesab oluna bilər.**

Əvvəla, ötən sayımızda da vurğuladığımız kimi, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın terror səbəbi ilə ikinci dəfə Bakıya gələ bilməməsinin qarşılığında prezidenti İlham Əliyevin Ankaraya qəfil getmək qərarı verməsi, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 5-ci toplantısının Türkiyədə də olsa gerçəkləşməsi təbii müttəfiqimizə qiymətli dəstək jesti olmaqla yanaşı, Türkiyə-Azərbaycan siyasi-hərbi tandeminin gücünü nümayiş etdirdi. Ortaq düşmənlərə ciddi bir xəbərdarlıq mesajı hətta göz dağı oldu. Türkiyənin mövqeyinə, gücünə bənzərsiz bir güc qatdı, onun yalqız olmadığını təsbitlədi. Bir daha nümayiş olundu ki, ağır gündə Türkiyəyə Azərbaycandan, Azərbaycana isə Türkiyədən yaxın, təmənnasız dost-müttəfiq yoxdur.

İki qardaş ölkənin sarsılmaz dostluğu və müstəqilliyinin ikinci mühüm təzahürü Türkiyə-Azərbaycan birgə hərbi təlimlərinin səfər müddətində də davam etdirilməsi sayıla bilər. Bu da ortaq düşmənlərə, xüsusən də işğalçı Ermənistana və onun havadarlarına "soyuq duş" effektli digər xəbərdarlıq mesajıdır. Hər halda, indiyədək edilən qarşılıqlı səfərlər zamanı belə ortaq "əzələ nümayişi" olmamışdı.

***

Nəhayət, səfərin üçüncü mühüm nəticəsi kimi imzalanan sənədlərə nəzər salmaq lazım gəlir. Bəllidir ki, onların sayı 6-dır. **Hərbi analitik, Xəzər Hərbi Tədqiqatlar İnstitutunun *(Caspian Defense Studies Institute - CDSI)* rəhbəri Cəsur Sümərinliyə** görə, Azərbaycanın Türkiyədəki səfiri Faiq Bağırov və Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının şəxsi heyət üzrə rəisi, korpus generalı İlhan Talu arasında imzalanan "Azərbaycan hökuməti ilə Türkiyə hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair Protokol" xüsusilə mühüm əhəmiyyət kəsib edir.

Bəs hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsi nə deməkdir? Ekspert ehtimal edir ki, söhbət Azərbaycan və ya Türkiyənin yüksək rütbəli hərbçilərinin qarşılıqlı olaraq bir-birinin silahlı qüvvələrində qısa və ya uzunmüddətli xidmətindən gedə bilər. "Sənədin adının ehtiyatlı qoyuluşu yəqin ki, bir sıra ölkələri qıcıqlandırmamaq üçündür", - deyə şərhdə bildirilir.

"Vaxtilə Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılmasının vacib detallarından biri planlaşdırma, büdcə vəsaitlərinin səmərəli istifadəsi, doktrinal sənədlərin hazırlanmasında NATO ölkələrinin dəstəyindən daha səmərəli istifadə edilməsi idi. Təəssüf ki, Bakı zaman-zaman bu istiqamətdə NATO-nun dəstəyindən imtina edib. Sözsüz ki, bu da Silahlı Qüvvələrdə mövcud olan korrupsiya və rüşvətxorluq hallarını, iri büdcə yeyintisini NATO-dan gizlətmək arzusu ilə bağlı olub. Son dəfə bir neçə il bundan öncə NATO rəsmi Bakıya Building Integrity proqramında iştirakı təklif etsə də, Azərbaycan hakimiyyəti bundan boyun qaçırtdı".

**Ancaq qurum rəhbərinin qənaətincə, hazırda belə görünür, vəziyyət dəyişib.** "Belə ki, neftin qiymətinin aşağı düşməsi nəticəsində bir çox sahələrdə olduğu kimi, ordu quruculuğunda, xüsusilə də hərbi planlaşdırma, büdcə vəsaitlərinin səmərəli istifadəsi və s. istiqamətində ciddi problemlər ortaya çıxıb. Belə bir vəziyyətdə, ehtimal var ki, ordudakı durumu düzəltmək üçün rəsmi Bakı NATO üzvü olan Türkiyənin praktik dəstəyinə arxalanmaq qərarı verib", - deyə institutun direktoru qeyd edib.

**Onun sözlərinə görə, hər bir şey gözlənildiyi kimi olsa, Türkiyə Silahlı Qüvvələrinin ən azı üç istiqamət üzrə yüksək rütbəli zabitləri Azərbaycan Müdafiə Nazirliyində yüksək vəzifələrə təyin oluna bilərlər.** "Söhbət büdcə planlaşdırılması, döyüş hazırlığı və arxa cəbhə təminatı istiqamətlərindən gedir" - Sümərinli bildirir.

"Amma bu təyinatlar nə dərəcədə effektiv olacaq, onu proqnozlaşdırmaq çətindir. Azərbaycanda hərbi büdcə korrupsiya hədəfi olaraq qalır və onun planlaşdırılması, xərclənməsi qaydaları, bu barədə qərarların necə verilməsi cəmiyyətə bəlli deyil. Təsadüfi deyil ki, bu, "Transparency International" ("Beynəlxalq Şəffaflıq") Təşkilatının bir qədər bundan əvvəl yaydığı hesabatda geniş şəkildə əksini tapıb", - deyə Sümərinli qeyd edib.

Qeyd edək ki, Azərbaycanda bir sıra hərbi qurumlarda oxşar taktikadan - yəni türkiyəli zabitlərin təcrübəsindən istifadə olunur. Söhbət Daxili Qoşunlardan (DQ) gedir. Belə ki, DQ Komandanının köməkçisi Türkiyə Jardarmasının hərbi qulluqçusudur.

***

Hərbi analitikin müşahidələrini ciddiyə alsaq, o zaman sözügedən protokolun Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının yeni keyfiyyət mərhələsini keçdiyini söyləmək mümkündür. Bu xüsusda sənədin həm işğalçı Ermənistanda, həm də onun 1 nömrəli müttəfiqi Rusiyada iki qardaş ölkənin güclənən müttəfiqliyindən dolayı təlaşı artıracağını əminliklə söyləmək olar.

Doğrudur, Türkiyə NATO üzvü olduğundan, onunla Azərbaycan arasında Ermənistanla Rusiya arasında 50 illiyinə imzalanan sənədə bənzər genişmiqyaslı hərbi əməkdaşlıq müqaviləsi yoxdur. Ancaq bu, qətiyyən iki qardaş ölkə arasında hərbi əməkdaşlığı yetərincə yüksək səviyyəyə qaldırmağa mane olmur. O sırada Azərbaycan Silahlı Qüvvələrini Gürcüstan ordusu kimi NATO standartlarına uyğun qurulmasında heç bir siyasi əngəl mövcud deyil, ola bilməz. İki ölkənin hazırda davam edən birgə təlimləri bunu bir daha bariz şəkildə sübut edir.

Başqa yandan, Azərbaycanın öz hərbi parkını işğalçı ölkənin əsas müttəfiqi Rusiyadansa qardaş Türkiyə hesabına komplektləşdirməsi günün əsas vəzifələrindən biri olaraq qalır. Nə xoş ki, son illər Ankara müasir hərbi texnika və silah-sursat istehsalı sahəsində də ciddi uğurlara imza atmaqdadır.

***

Sonda əlavə edək ki, Azərbaycanın müdafiə sistemində türkiyəli generalların ən azından təlimatçı qismində çalışması iddiaları barədə erməni mətbuatında zaman-zaman həyəcanlı yazılar, ekspert rəyləri dərc olunub. Olsun. Bu ehtimalın quruca varlığı düşməni təlaşda saxlayırsa, ona çəkindirici təsir göstərirsə, göstərsin.

Bütün hallarda hərbi müttəfiqliyi gücləndirmək iki qardaş dövlətin halal haqqıdır. Necə olur, Ermənistanın hətta xarici sərhədlərini də rus hərbçiləri qoruyur, bu ölkədə Rusiyanın 5 minlik hərbi bazası olur, amma Azərbaycan ordusunda türk generalları müqavilə əsasında çalışa bilməz?

İşğaldan qurtulmaq üçün terror istisna olmaqla, indi istənilən vasitə məqbuldur. Bu hüququ Azərbaycana ilk növbədə BMT Nizamnaməsi verir.

***

**Qəzet çapa gedərkən Müdafiə Nazirliyinin mətbuat xidməti məsələyə dair bir açıqlama yaydı:** "Martın 15-də Ankara şəhərində Azərbaycanla Türkiyə arasında hərbi-mülki heyətin mübadiləsinə dair imzalanan protokolu şərh edən bəzi elektron kütləvi informasiya vasitələri məsələyə qeyri-ciddi yanaşıblar. Sənədə əsasən, yüksək rütbəli zabitlərin qarşılıqlı olaraq hər iki dövlətin hərbi qurumlarında xidmət etməsi fikri tamamilə yanlışdır. Bununla belə, ikitərəfli əməkdaşlıq planına uyğun olaraq, 2015-ci ildən başlayaraq rəhbər heyət qarşılıqlı surətdə taktiki səviyyədə Azərbaycan və Türkiyədə təcrübə mübadiləsi məqsədilə qısamüddətli hərbi xidmət keçir. Bu, döyüş hazırlığının artırılması və bölmələrin uzlaşması məqsədilə həyata keçirilən təlim prosesidir".

Ekspertlər bu ehtiyatlı bəyanatı belə şərh edir ki, Türkiyə Silahlı Qüvvələri zabitlərinin Azərbaycan ordusuna cəlb edilməsi məsələsi Qərb və Rusiyada qıcıq doğura bilər. Bu səbəbdən kifayət qədər ehtiyatlı davranılır və məsələ "təcrübə mübadiləsi məqsədilə qısamüddətli hərbi xidmət keçmə" kimi qoyulur.

Xatırladaq ki, mərhum prezidentlər Əbülfəz Elçibəy və Heydər Əliyevin hakimiyyətləri zamanında Türkiyə hərbçiləri Azərbaycan ordusunun ayrı-ayrı hərbi hissələrinin formalaşdırılmasında, NATO standartlarına uyğunlaşdırılmasında yaxından iştirak ediblər. Müxtəlif dönəmlərdə orduda peşəkarlığın artırılması məqsədilə Türkiyə generallarının, zabitlərinin təcrübələrindən istifadə olunduğu sirr deyil.

Bəyanatdan da sezilir ki, qarşıdakı müddətdə təcrübə mübadiləsi məqsədilə növbəti dəfə Türkiyə hərbçiləri ordumuza qısamüddətli də olsa təlimlər keçəcəklər.

❑ **Siyasət şöbəsi**

# Prezidentin Ankara səfəri ölkəmizi hədəfə çıxara bilərmi?

**Azərbaycan prezidenti İlham Əliyevin qardaş Türkiyəyə səfəri hər iki ölkənin mətbuatı və ictimaiyyətinin əsas müzakirə mövzusuna çevrilib. Heç şübhəsiz, bu səfər ölkəmizə müsbətlərlə yanaşı, azacıq da olsa, mənfilər də gətirə bilər. Belə ki, səfər ilk növbədə, Türkiyə ilə münasibətlərində hələ də gərginlik yaşanan Rusiyada qıcıq yarada bilər.**

Bu mənada Azərbaycan prezidentinin qardaş ölkəyə səfəri təkcə terror faciəsində Türkiyənin yanında olmasını göstərmədi, eyni zamanda ölkəmizin Türkiyənin yanında olduğunu nümayiş etdirdi. Ekspertlərə görə, bu, Azərbaycanın təhlükəsizliyinə müəyyən problemlər yarada bilər. Ölkəmizin hətta bu səfərdən sonra Türkiyəyə düşmən kəsilən İŞİD və PKK kimi terror təşkilatlarının hədəfinə gələ biləcəyindən ehtiyatlananlar da az deyil.

**Politoloq Qabil Hüseynli ölkə başçısının Ankara səfərini comərd addım kimi dəyərləndirdi:** “Türkiyə özünün ağır günlərini yaşayır. Artıq son 5 ayda üçüncü terror hadisəsi törədilib. Ölkənin siyasi elitası, əhalisi böyük sarsıntı içərisindədir. Belə bir zamanda prezidentimizin Türkiyə səfəri həm Ankaranın imicini qaldırmaq, həm də Ərdoğanın nüfuzunun yüksəlməsi baxımından böyük əhəmiyyətə malik idi. Azərbaycan nümayiş etdirdi ki, təkcə xoş günlərin deyil, çətin günlərin də dostudur. İki türkdilli dövlət bir-birilərini müdafiə etdiklərini dünyanın gözü qarşısında bəyan etdilər. Bu, Azərbaycan tərəfdən göstərilən misilsiz bir əxlaq nümunəsi idi. Azərbaycan isbat etdi ki, Türkiyə ilə sözdə deyil, işdə qardaşdır».

**Politoloq səfərlə Azərbaycanın verdiyi mesajlara da toxundu:** “Bu səfər həm də Türkiyə və Azərbaycanı istəməyənlərə verilən mesaj idi. Söhbət burada Rusiyadan gedir. Ölkəmiz çox çətin riskə imza ataraq, Türkiyəyə çətin şəraitdə dəstək verdi. Bu, Rusiya daxilində müsbət ovqat yarada bilməz.



**Qabil Hüseynli:**
“Bu, Azərbaycan tərəfdən göstərilən misilsiz bir əxlaq nümunəsi idi”

Amma bu vəziyyət Azərbaycan rəhbərliyini qətiyyən narahat etmir. Çünki yaxşı bilirik ki, dar günümüzdə yanımızda olacaq yeganə dövlət Türkiyədir. Azərbaycanın hərəkəti türk dünyasına da yönəlik müsbət mesaj idi. Heç şübhəsiz ki, səfərdə verilən mesaj türkdilli dövlətlərin şüurlarında müsbətlər yaradacaq. Türkiyə açıq şəkildə deyir ki, Qarabağ təkcə Azərbaycanın deyil, eyni zamanda onların məsələsidir. Bundan sonra Qarabağ məsələsində Türkiyənin dəstəyinin daha da artacağı istisna deyil. Bir sözlə, ölkə başçısının səfəri tarixi bir səfərdir və Azərbaycan-Türkiyə dostluğunu, əməkdaşlığını daha da yüksəklərə qaldıracaq”.



**İlham İsmayıl:**
“Terror təşkilatlarından daha çox Rusiyanın hədəfinə gələ bilərik”

**Q.Hüseynli Azərbaycan prezidentinin Türkiyə səfərinin gətirə biləcəyi mənfi istiqamətlərə də nəzər saldı:** “Bu məsələni istəməyən tərəf yalnız Rusiyadır. Amma Rusiya anlamalıdır ki, Azərbaycan müstəqil dövlətdir və strateji maraqlarını özü müəyyən edir. Bu səfərdən sonra İŞİD və PKK kimi terror təşkilatlarının qəzəbinə gələ bilərik. Azərbaycanın asayişi qoruyan orqanlarının bu sahədə böyük təcrübələri var. Amma bütün Azərbaycan xalqı ölkəmizə qarşı işlənə biləcək terror hadisələrinə görə ayıq-sayıq olmalıdır. Ölkənin təhlükəsizliyi üçün bütün ictimaiyyət səfərbər olmalıdır. Bu təkcə hüquq-mühafizə orqanlarının vəzifəsi olmamalıdır”.



**Fəzail Ağamalı:**
“Təhlükə bizə də sıçraya bilər”

**Sabiq MTN zabiti İlham İsmayıl hesab edir ki, terror təşkilatları İlham Əliyevin Ankara səfərini başqa cür qiymətləndirəcəklər:** “Terror təşkilatları deyəcəklər ki, istədiyimizə qismən çatdıq, çünki Ərdoğanın səfərlərinə mane olduq. Məsələnin mənfi tərəfi odur ki, terrorçunun tələbləri yerinə yetirilərsə, daha irəli gedir. Prezident Ankaraya getməmişdən əvvəl demişdim ki, Ərdoğan gəlməsə, İlham Əliyev ora getsə, bu, terrorçunun tələblərinin həyata keçməsi deməkdir. Bu baxımdan mümkündür ki, Azərbaycan hədəfə gəlsin. Amma bunun reallığı çox azdır. Çünki hədəf Türkiyədir. Türkiyə terror təşkilatlarından başqa Rusiya kimi də dövlətin hədəfidir. Azərbaycanın bu məqamda Türkiyənin yanında olması təbii ki, Rusiyada qısqanclıq yaradacaq. Putinin aqressivliyi Azərbaycana da sıçraya bilər. Terror təşkilatlarından daha çox Rusiyanın hədəfinə gələ bilərik. Ehtiyatımızı əldən verməməliyik. Bəlkə də Azərbaycanın növbəti diplomatik gedişləri Rusiya ilə bağlı olacaq. Buna çalışmaq da lazımdır. Onun hədəfinə gəlmək bizə lazım deyil. Rusiyadan zaman-zaman təhdid, təzyiqlər görmüşük. Onların terror törətmək imkanları daha çoxdur. Çünki terror təşkilatları ilə əlaqələri genişdir. Azərbaycan rəhbərliyi atmalı olduğu addımları daha yaxşı bilir”.

**İqtidaryönlü deputat Fəzail Ağamalı Əliyevin riskə söykənən səfərinin Türkiyə ilə münasibətlərdə müsbətə doğru atılan daha bir addım olduğunu qeyd etdi:** “Ərdoğanın iki dəfə Bakıya səfərinə əngəl yaradılması düşünülmüş addım idi. Düşmənçilik mövqeyi ortada açıq şəkildə görünür. Ərdoğan Bakıya gəlməsinin üzərində son ana qədər qətiyyətlə dayanırdı. Amma ölkə prezidentinin özünün Türkiyəyə səfəri qardaş ölkəyə, onun rəhbərinə dostluğunun nümayişi oldu. Bu addım kifayət qədər riskli idi. Cənab prezidentin ən müsbət cəhətlərindən biri qətiyyətli və cəsarətli olmasıdır. Bunu bir daha ortaya qoydu. Dünyaya açıq mesaj verildi. Azərbaycan, şükürlər olsun ki, terror təhlükəsindən uzaqdadır. Amma istənilən an bu təhlükə bizə də sıçraya bilər. Ölkə başçısı bunları göz önünə gətirərək, müstəqil dövlət olduğumuzu bir daha nümayiş etdirdi. Səmimi şəkildə bildirirəm ki, prezidentimlə fəxr edirəm. Prezidentimiz Türkiyəni, türk xalqını sevən bir şəxs kimi gözümüzdə bir daha ucaldı. Bütün Azərbaycan xalqı bu düşüncəni özündə daşıyır. Bu səfər yeni səhifənin açılması deməkdir. Türk xalqının bizə münasibətini bu səfər bir daha özündə ehtiva edəcək”.

❑ **Cavanşir ABBASLI**

# Müxalifətdən İlham Əliyevin Türkiyə jestinə reaksiya gəldi

## Müxalif düşərgə yetkililəri səfəri iki ölkə üçün pozitiv və önəmli hadisə kimi qiymətləndirirlər...



**Azərbaycan prezidenti İlham Əliyevin Türkiyəyə son səfəri iki ölkə cəmiyyətində rəğbətlə qarşılanıb. Son iki gündə cəmiyyətdən gələn reaksiyalar bunu deməyə əsas verir. Bəs, Azərbaycan müxalifəti İlham Əliyevin bu jestini necə qarşılayıb?**

**ADP sədri Sərdar Cəlaloğlu** bildirdi ki, Türkiyə ilə Azərbaycan arasında müqavilələrin imzalanması vacib idi: “Lakin bəlli səbəblərdən Ərdoğan ikinci dəfə səfərini təxirə salmalı olmuşdu. İmzalanan sənədlərin vacibliyi və iki qardaş ölkənin bir-birinin yanında olduğunu nümayiş etdirmək baxımından İlham Əliyevin səfəri baş verdi. Türkiyədə ard-arda terror aktları həyata keçirildiyi, Türkiyənin Rusiya ilə, Avropa ilə münasibətlərinin indiki məqamında Azərbaycan dövlət başçısının Ankaraya getməsi və Türkiyəyə dəstəyin ifadə edilməsi iki qardaş ölkənin münasibətinin bir gərəyi idi. Bu baxımdan mən bunu dəyərləndirirəm ki, vaxtında və düzgün atılmış addımdır. Bu, həm də bir siyasi mesajdır. O ölkələr ki, Azərbaycanla Türkiyə arasında əlaqələrin pisləşməsində maraqlıdır və Azərbaycanın müəyyən proyektləri həyata keçirməsinə cəhd edirlər, İlham Əliyevin Ankaraya səfəri bu qüvvələrə verdiyi dərsdir”.

Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı Azərbaycan prezidentinin Türkiyəyə səfər etməsinə belə münasibət bildirdi: “Azərbaycan tərəfi öz üzərinə düşən işi gördü. Azərbaycan Türkiyə ilə strateji müttəfiqdir. Ona görə də belə də olmalı idi. Amma Ankarada imzalanan sənədlərin səviyyəsi həmin görüşün mahiyyətinə heç də uyğun gəlmədi. Hər kəs gözləyirdi ki, bu görüşdə çox vacib, çox ciddi sənədlər imzalanacaq, ən azı Türkiyə ilə Azərbaycan arasında viza rejimi ləğv olunacaq. Lakin bu görüşün tarixi bir görüş olması ancaq onunla bağlı oldu ki, Azərbaycan tərəfindən belə bir məqamda jest edildi. Bu da normal haldır. Hər bir halda indiki zamanda Türkiyəyə getmək təbii ki, lazım idi. Bu hadisə iki qardaş dövlətin bir-birinin yanında olmasını göstərən hadisədir”.

**VİP sədri Əli Əliyev prezidentin qərarını müsbət qiymətləndirdiyini dedi:** “Doğru və diplomatik baxımdan sərrast qərardır. Bunun bir neçə səbəbi var: 1. İlk növbədə mənəvi tərəfi- Türkiyə qardaş və strateji baxımdan istinad dövlətdir. Qardaşın digər qardaşın yanında ən ağır günlərdə olması mənəvi borcdur. Ölkə başçısının Azərbaycan xalqının təmsilçisi qismində Ərdoğanın yanında durması bütün dünyaya simvolik mesajdır. 2. Türkiyəyə son dövrlər terror vasitəsilə hücumlar, Prezident Ərdoğan başda olmaqla, AKP iqtidarının yürütdüyü ardıcıl siyasətə üzdə PKK-nın, altda isə dünya güclərinin narahatlığı və verdiyi reaksiyadır. Türkiyənin son dövrlər bütün seqmentlərdə qlobal gücolma iddiası, onun təhdidlə üzləşməsinin ilk səbəbidir. Belə miqyaslı təzyiq kampaniyasına Azərbaycanın bu səfərlə demarş etməsi, Türkiyəyə qahmar çıxması ciddi jestdir. Eyni zamanda Türkiyəyə qarşı olan qüvvələrə çağırışdır. Riskli addımdır. Ancaq risk sevməyən Azərbaycanın siyasi zirvəsindən bu addımı görmək qeyd olunmağa layiqdir. 3. Terrorun Bakı səfəri ərəfəsinə təsadüf etməsi və səfərlərin ertələnməsinə rəğmən, Azərbaycan tərəfinin addımı həm də cəsarət nümunəsidir. 4. Türkiyə mətbuatında terrorun alternativ qaz kəməri layihəsinə qarşı olduğu versiyası müzakirə edilirdi. Əgər həqiqətən belədirsə, Azərbaycan tərəfinin bu layihədə israr nümayiş etdirməsi, həmin güc sahiblərinə çağırış kimi başa düşülməlidir. Belə mövqeyin altının cızılmaması insafsızlıq olardı. 5. Nəhayət, görüşün atmosferi və məzmunu qeyd olunmalıdır. Ən yüksək səviyyədə qəbul, nümayiş etdirilən sayğı və siyasət üçün xarakterik olmayan səmimiyyət səfərin ruhunun göstəricisidir. Düzü, prezidentin İran səfərindən, Putinlə telefon danışıqlarından və onun təmsilçilərinin ardıcıl Bakı səfərlərindən sonra Azərbaycan hakimiyyətinin xarici vektor seçimi ilə bağlı şəxsən məndə yaranmış narahatçılıqlar müəyyən qədər toxdadı”.

**Yeni AXCP-nin sədri Razi Nurullayevə görə, prezidentin Ankaraya getməsi bir neçə cəhətdən diqqət çəkib:** “Birincisi, Azərbaycan prezidenti Türkiyə xalqına başsağlığını bir daha Ankarada dilə gətirdi. Bir çox insanlar Ankaraya terror qorxusu səbəbi ilə səfərini təxirə salarkən, Azərbaycan prezidenti səfər gerçəkləşdirdi. Təbii ki, bu jest də həm Türkiyə prezidenti, həm də xalqı tərəfindən yüksək qiymətləndirildi. Bu səfər qardaşlığın sözdə yox, həm də əməldə olduğunun sübutu oldu.

Səfərin ikinci maraqlı tərəfi isə Rusiya-Türkiyə münasibətlərinin hələ də yaxşılaşmaması fonunda baş verməsidir. Bir sıra ekspertlər Putinin Azərbaycana təzyiq göstərdiyini və Türkiyə ilə münasibətlərində sərhəd qoyması tələbini irəli sürdüyünü yazırlar. Hətta Putinin Azərbaycanı cəzalandıracağı barədə fikrilər dilə gətirirlər. Bu ehtimalın da yalan olduğu və ya Azərbaycanın bu tip hədələrdən qorxmadığını, Türkiyə-Azərbaycan qardaşlığının daha möhkəm bünövrə üzərində olduğu aşkara çıxdı. Üçüncüsü, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısının keçirilməsi vacib idi. Yenidən təxirə salınması, lazımi ismarışların verilməsini ləngidə bilərdi. Neftin qiymətinin düşməsi fonunda TANAP və TAP layihələrinin də risk altında olduğu vurğulanmaqdadır. Bu isə Azərbaycan üçün məqbul hal deyil. Bu görüşdə TANAP layihəsinin tikintisinin daha da sürətləndirilməsi haqqında müzakirə hər iki tərəfin xeyrinə işləmiş oldu".

❑ **Etìbar SEYİDAĞA**



# Fazil Mustafa REAL sədrini tənqid etdi

## “Artıq bu tərbiyə ilə bir adamı prezidentliyə buraxmaq olmaz” deyən deputata hərəkatdan sakit şəkildə cavab verildi...

**Deputat Fazil Mustafa REAL sədri İlqar Məmmədovla bağlı mübahisə doğuracaq fikirlər səsləndirib. Jurnalist Əvəz Zeynallının “Qaynar qazan” layihəsi çərçivəsində sualları cavablandıran F.Mustafa İ.Məmmədovu vaxtilə Milli Məclisi zoopark adlandırdığına görə yenidən tənqid edib və “artıq bu tərbiyə ilə bir adamı prezidentliyə buraxmaq olmaz”,- deyə bir neçə il əvvəlki söhbətə yenidən diqqət çəkib. “İlqar Məmmədov məsələsinə də mənim sərt reaksiya verməyim, İlqar Məmmədovun şəxsiyyətilə bağlı deyildi ki... İlqar Məmmədov deyir ki, ”Milli Məclis zooparkdır, orada oturanlar da heyvanlardır". Artıq bu tərbiyə ilə bir adamı prezidentliyə buraxmaq olmaz. Mənim imkanım olsa, bu adamı buraxmaq olmaz. Çünki adam demokrat ola bilər, amma bu gün hakimiyyətdə də olmadığı üçün ona ən azı insanların rəğbəti lazımdır. Təkcə müxalifətin rəğbəti əsas deyil ki, həm də hakimiyyətdəkilərin rəğbətini qazanmaq lazımdır. Əgər siyasətdəsənsə... Hakimiyyət təkcə 5-10 nəfərdən ibarət deyil ki... Bu gün hakimiyyəti dəstəkləyən, ən azı o sistemin içində olan yüz minlərlə insan var. Bu insanlar bilsələr ki, sən onları heyvan yerinə qoyacaqsan, səni hakimiyyətə buraxar? Sənin xeyrinə səs verər? Əbülfəz Elçibəyin bunların hamısından böyüklüyü nə idi? Əbülfəz Elçibəyin hətta fikirləri, düşüncələri bəzilərinə tərs də olsa, hamı bilirdi ki, onun bir ziyalılıq əmsalı, humanizm modeli var. Bu humanizm modeli də kiminsə nahaqdan başını bıçağın altına qoyub kəsməyəcək. Amma bu adamlar, bu obrazlar özlərinin hikkələrinə görə istənilən başı kəsə bilərlər. Bu demokratiya həm də görüntü olaraq demokratiya görüntüsüdür... Ziyalılıq əmsalı bu adamlarda çox aşağıdır",- deyə F.Mustafa köhnə məsələyə yenidən rəy bildirib.**

Məsələ ilə bağlı REAL-ın icra katibi Natiq Cəfərli musavat.com-a açıqlama verib. O bildirib ki, bir cümlə ilə bir liderin bütün fəaliyyətini qiymətləndirmək, həmçinin kölgə salmaq olmaz: “Nə REAL Hərəkatında, nə İlqar Məmmədovda heç vaxt qisasçılıq hissi olmayıb. Ölkədə normal şəkildə seçkinin təmin olunması üçün əlimizdən gələni bu günə qədər etmişik. Ona görə də, obrazlı desək, bu yöndə tonlarla təkliflər də vermişik. Həmin bir cümlədən çıxış edərək İlqar Məmmədova qiymət vermək doğru deyil. Onun həmin anda olduğu vəziyyəti də başa düşmək lazımdır. Həmin deputat da yəqin İlqar Məmmədovun yazdığı onlarla, yüzlərlə məqalələrdən xəbərdardır. İlqar Məmmədovun onlarla, yüzlərlə məqalələri, araşdırmaları olub. Sistem dəyişiklikləri ilə bağlı, problemlərlə bağlı çox sayda məqaləsi olub. O, artıq üç ildən çoxdur ki, heç bir günahı olmadan həbsdədir, orada da fəaliyyətini dayandırmayıb. Bloqunda da, mətbuatda da onlarla yazıları çıxıb. Müxtəlif problemlərlə bağlı təkliflər verib. Dağlıq Qarabağ problemindən tutmuş iqtisadi problemlərə qədər, bir çox məsələlərə münasibətini bildirib. Həm də Azərbaycanda azad və demokratik seçkilər olacaqsa, o zaman xalq qərar verəcək ki, kim prezident olmağa layiqdir. Onu bir nəfərin fikri müəyyən etməyəcək. Ona görə hamımızın ən böyük istəyi, arzusu odur ki, Azərbaycanda sivil qaydalarda keçid dövrü olsun, normal demokratik, azad seçkilər olsun. O zaman xalq kimə səs verəcəksə, o da prezident olacaq. Ölkənin gələcək taleyini, gələcək inkişafını o və onun komandası müəyyən edəcək. Əgər lap dərinə getsək, REAL Hərəkatı ümumiyyətlə Azərbaycanda parlament respublikasının tərəfdarıdır. Biz bunun üçün çalışacağıq. Bu günə qədər də bu fikri cəmiyyətdə geniş yaymağa çalışmışıq. REAL-ın seçkilər yolu ilə hakimiyyətə gəlmə şansı olan kimi addım-addım Azərbaycanda parlament respublikasının qurulmasına çalışacağıq. Bu yolda da qanunvericilikdə və konstitusiyada dəyişikliklər təklifi olacaq. Yəni buna görə də bizim hədəfimiz demokratik, azad seçkilərin keçirilməsidir. Bunun üçün çalışırıq. Bu zaman xalq öz sözünü deyəcək, kim layiqdirsə, iqtidarda təmsil olunacaq”.

❑ RÖYA

# İcra başçılarının yeni “qara siyahısı”

## 8 icra başçısı haqda qovluqlar hazırdır; onların işdən çıxarılmasına hazırlıq gedir

**Prezident İlham Əliyevin sərəncamları ilə Cəbrayıl, Laçın və Salyan rayonlarının icra başçıları vəzifələrindən azad olundular, Yardımlının icra başçısı isə Salyana rəhbər gətirildi. Salyanda əhali illər idi ki, icra başçısından narazı idi. Lakin Tahir Kərimov hakimiyyətdəki əlaqələri hesabına vəzifədə qala bilirdi. İcra başçısını xalqın narazılığı maraqlandırmırdı. Heç yerli sahibkarların fikirlərini dinləmək belə istəmirdi. Onların dövlət qurumlarına şikayətlərinin araşdırılmasını isə T.Kərimov əngəlləyə bilirdi. Ən nəhayətdə isə Tahir Kərimovu “Salyan Oil Ltd” neft şirkətinin işinə mane olduğuna görə cəzalandırdılar.**



Mərdan Camalov



Şahin Məmmədov



Xaləddin İsgəndərov



Ramiz Yediyarov

T.Kərimov kimi ölkə rəhbərliyinin etimadını doğrultmayan icra başçıları çoxdur. Onların işdən çıxarılması üçün qovluqlar hazırlanır. Belə başçılar sırasında ilk yerlərdə Masallının icra başçısı Rafil Hüseynov, Gədəbəyin icra başçısı Ramiz Yediyarov, Füzulinin icra başçısı Alı Alıyev, Şirvanın icra başçısı Mərdan Camalov, Goranboyun icra başçısı Nizaməddin Quliyev, Binəqədinin icra başçısı Xaləddin İsgəndərov, Zərdabın icra başçısı Lütfəli Babayev, Ağcabədinin icra başçısı Şahin Məmmədov qərarlaşıblar.

Ötən ilin sonlarından etibarən hakimiyyət dairələrinin təkcə mərkəzdə deyil, əyalətlərdə də bəzi kadr dəyişiklikləri edəcəyinə dair məlumatlar vardı. Həmin məlumatlarda vurğulanırdı ki, bu dəyişikliklər əsasən icra başçılarını əhatə edəcək. Artıq proses başlayıb. Ləng də olsa icra başçılarını vəzifədən çıxarırlar.

Adlarını sadaladığımız icra başçıları ölkə rəhbərliyinin etimadını doğruldub xalqın güzəranını dirçəltmək, sahibkarlara fəaliyyət göstərmələri üçün şərait yaratmaq əvəzinə rayonlarda sosial-iqtisadi durumu ağırlaşdırıblar. Dövlət büdcəsindən ayrılan milyonlarla manat vəsait ən müxtəlif maxinasiyalarla mənimsənilib, başçıların şəxsi biznesinə yatırılıb.

Məsələn, Gədəbəyin icra başçısı Ramiz Yediyarov yerli sahibkarları rayondan didərgin salmaqda ad çıxarıb. İcra başçısı özünə və gözünə xoş gəlməyən sahibkarın obyektini dağıdır. Məsələ məhkəmə müstəvisinə gələndə isə yaxasını kənara çəkib digər yerli qurumları qabağa verir. Vurulan ziyana görə cərimələnən dövlət qurumu olur deyə kompensasiya məbləği də dövlət büdcəsindən gedir. Halbuki sahibkarın obyekti fəaliyyətdə olardısa, obyektdən yerli büdcəyə də gəlir daxil olardı. Bunun əvəzində bu gün 44 gədəbəyli sahibkar Bakıda dövlət qurumlarına aylardır ki, dayanmadan şikayət edirlər. İstədikləri isə icra başçısının qanunsuzluqlarına son qoyulmasıdır.

Masallıda da eyni vəziyyətdir. Rayonun sosial-iqtisadi inkişafı üçün ayrılan milyonların taleyi qaranlıqdır. Dəfələrlə bu mövzu gündəmə gəlsə də, pulların taleyindən xəbər çıxmır. Rafil Hüseynovun gördüyü işlər isə yerli sahibkarların ziyanına işləyib. Məsələn, rayon ərazisindəki bir neçə yolun təmiri yaxınlıqdakı bütün dükan sahiblərinə ziyan vurmuşdu. Bununla bağlı sahibkarlara ciddi ziyan dəydiyindən onlar icra başçısının qanunsuz əməllərə son qoyulmasını tələb etmişdilər. Lakin icra başçısı onların tələblərini dinləməyib. Rafil Hüseynov yerli sahibkarların fəaliyyətini iflic edib və özünün çörək köşklərinin sayını artırmaqla məşğuldur. R.Hüseynovun rayondakı çörək zavoduna şərik olmasını bilməyən yoxdur. İcra başçısı bir müddət əvvəl rayon ərazisində çörək monopoliyası yaratmaq üçün təndirxanaları və çörək sexlərini bağlatdırmağa girişmişdi. Gündəlik 5-10 manat qazancları əllərindən çıxan çörəkçilərin ciddi etirazları Bakıya çatandan sonra R.Hüseynovun inhisarçılığının qarşısı alındı.

Barələrində qovluqlar toplanan başçıların iş prinsipləri demək olar ki, bir-birini təkrarlayır. Mərkəzi büdcədən rayon büdcələrinə ayrılan vəsait mənimsənilir, əvəzində sahibkarlardan xərac toplanılması, şəxsi maraqların təmin olunmasına yönəlik addımlar atılır. Bu əməllər rayonlarda elə belə də ağır olan sosial-iqtisadi durumu dözülməz həddə qədər ağırlaşdırır. Görünən odur ki, icra başçılarının “təmizlənməsi” prosesi başladılıb. Yerlərdəki “balaca padşah”lar tutduqları vəzifələrdən çıxarılırlar. Qalır yeni kadrların əvvəlki qaydalarla işləməkdən imtina edib xalqın güzəranını yaxşılaşdırmağa yönəlik işlər görməyə, sahibkarlara şərait yaratmağa həvəs göstərmələri. Yalnız bu halda yeni təyinat alan başçılar ölkə rəhbərliyinin etimadını doğrulda bilərlər.

❑ E.HÜSEYNOV

# İtkin mətbuat xidməti rəhbərinin əmisi də yoxa çıxdı

## İradə Cavadova: “Ola bilsin ki, bu işdə daha yüksək vəzifəli şəxslərin barmağı var”

**Tələbə Qəbulu üzrə Dövlət Komitəsi (TQDK) mətbuat xidmətinin keçmiş rəhbəri Elnur Nağızadənin adı hallanan 150 min dollarlıq qalmaqal Məleykə Abbaszadəni də çətin durumla üz-üzə qoyub. E.Nağızadədən 2 şikayətçi var. 2 ay əvvəl Bakı şəhər sakinləri Vüsal İbrahimov və Zaur Əsgərov hüquq-mühafizə orqanlarına verdikləri şikayət ərizələrində 2015-ci ilin avqust ayında Elnur Nağızadəyə işə düzəlmək məqsədilə 150 min ABŞ dolları verdiklərini bildiriblər. Onlar işlə təmin olunmadıqlarını və pullarını geri ala bilmədiklərini vurğulayıblar.**



Elnur Nağızadə

Bu ilin yanvarında E.Nağızadə vəzifəsindən çıxarıldı. Fevralda isə məsələ mətbuatda tirajlanmağa başladı. E.Nağızadə isə “Bu haqda xəbərim yoxdur. İlk olaraq sizdən eşidirəm. Yalan informasiyadır” deməklə yaxasını ittihamlardan kənara çəkməyə çalışdı. Bir neçə gün əvvəl E.Nağızadənin əmisi Tahir Nağıyev “Bizim də deyəcəklərimiz var. Elnura qarşı ittihamlar əsassızdır. 2 aydan çoxdur ondan xəbər ala bilmirik, danışa bilmirik. İki uşağı qalıb ortada. Kimlərsə Elnuru yoxa çıxarıb. Elnurun həyatı təhlükədədir, ölüm təhdidləri alıb” deyə, bildirmişdi. T.Nağıyev TQDK sədri Məleykə Abbaszadəni hədəf götürərək ünvanına bir sıra kəskin ittihamlar səsləndirmiş və mətbuat konfransı keçirərək bütün dediklərini əsaslandıracaqlarını söyləmişdi. Lakin T.Nağızadə vəd etdiyi konfransı keçirib media nümayəndələri qarşısına çıxmadı.

Martın 16-da gün ərzində T.Nağızadə ilə əlaqə saxlamaq istəsək də, cəhdlərimiz baş tutmadı. Baş Prokurorluğun yaydığı məlumata görə, Elnur Nağızadə ilə bağlı daxil olmuş şikayət əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində fakta görə Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 320.1-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) maddələri ilə cinayət işi başlanıb. E.Nağızadə başlanmış cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilərək axtarışa verilib. Hazırda onun tutularaq istintaqa cəlb edilməsi istiqamətində istintaq və əməliyyat axtarış tədbirləri davam etdirilir.

**Məsələni dəyərləndirən hüquq müdafiəçisi İradə Cavadova “Ola bilsin ki, bu işdə daha yüksək vəzifəli şəxslərin barmağı var” deyə bildirib. “Şərq”ə açıqlamasında vurğulayıb ki, onun kim tərəfindən gizlədilməsi hələ ki bilinmir:** “Onun ölkədən çıxıb-çıxmaması ilə bağlı məlumat əldə etmək Daxili İşlər Nazirliyi üçün o qədər də çətinlik törətmir. Onun telefonları olub. Rabitə dairəsini müəyyən etmək mümkündür ki, sonuncu dəfə kimlərlə danışıb. Bu işləri aparmaq DİN istintaq orqanının vəzifəsidir. Digər yandan, onun ölkədən giriş-çıxışı araşdırılmalıdır”. **İ.Cavadova diqqətə çatdırıb ki, E.Nağızadənin təkbaşına fəaliyyət göstərməsi mümkün deyil:** “Yəqin ki, o bu işləri bir qrup şəxslə həyata keçirib. Təbii ki, yalnız özü bunun açıqlamasını verə bilər. Başqa şəxslər onu gizlətmək məqsədilə yoxa çıxarıblarsa, onlar da cinayət məsuliyyətinə cəlb olunacaqlar”.

❑ E.HÜSEYNOV

# "Alo, "Qaynar xətt" sizi eşidir!" - jurnalistlər nazirlikdə yarım gün işlədilər

## "Yeni Müsavat"çılar bir gün boyunca Təhsil Nazirliyinə müraciət edən şikayətçiləri dinlədilər

**"Siz bizim "Qaynar xətt"ə nə zamansa müraciət etmisiz? Ya valideyn, ya jurnalist kimi...? Etmisizsə, biz sizin telefon nömrənizə əsasən sistemdə axtarış verə, həmin şikayətə verilən cavabı, onun araşdırılmasını, nəticəsini sizə göstərə bilərik..."**

### Valideynlər də, müəllimlər də, məzunlar da... bura müraciət edir

Bir neçə saniyə tərəddüd edirəm. Amma yadıma düşür ki, bu günə qədər bir dəfə də Təhsil Nazirliyinin "Qaynar xətt"inə müraciət etməmişəm. Məlum, əlimizdə qələm, bu böyüklükdə media tribunası... sözümüzü hər zaman cəsarətlə deyə bilmişik. Ya qəzetdə, ya saytda, ən pis halda sosial şəbəkədə. Amma hər bir azərbaycanlı ailəsinin gündəlik müzakirə mövzularından olan məktəb, universitet, təhsil... özü ilə birgə şikayətləri də gətirib. Kimsə bunu öz çevrəsində müzakirə edib, kimsə Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən "Qaynar xətt"ə zəng vurub.

"Yeni Müsavat"ın repartyorları məhz bu şikayətlərin ünvanlandığı məkanda - Təhsil Nazirliyinin Telefon Məlumat Mərkəzi (digər bir adı da "Qaynar xətt"dir-S.T.) və Vətəndaşların Qəbulu Mərkəzində nələr baş verdiyini öyrənmək istədi. Buna görə də həmin mərkəzlərdə yarım gün "işləmək" üçün rəsmi məktubla müraciət etdik: operator kimi gələn zənglərə cavab verək, vətəndaşlar nədən narazıdır, nə ilə bağlı müraciət edir... deyə öyrənməyə çalışdıq. Müraciətə müsbət cavab verildi və budur, həmin mərkəzlərdən birindəyik.

İlk dayanacağımız Telefon Məlumat Mərkəzidir. Vətəndaşların 146-ya zəng etməklə şikayətlərini ünvanladıqları məkan. 5 əməkdaş qulaqlarında qulaqcıq, qarşılarındakı kompüterdə isə saysız-hesabsız telefon nömrələri, blanklar, sənədlər... Hər iki saniyədən bir yeni bir zəng gəlir. Səbirlə cavab, məsləhət verir, lazım gələndə müvafiq şöbələrə, səlahiyyətli nümayəndələrə yönləndirirlər.

Yazının girişində qeyd etdiyim sualı isə mərkəzin əməkdaşları bəndənizdən soruşurlar. Çünki burda dərya kimi bir məlumat bazası var. "Qaynar xətt"ə nə zamansa müraciət edən vətəndaşların müraciətləri, onların araşdırılıması, nəticəsi, hətta və hətta vətəndaşın bu nəticədən razı qalıb-qalmadığı öz əksini tapıb. Nə zamansa müraciət etmisizsə, bu arxivdə sizin də adınıza, müraciətinizə rast gəlmək olar.





### Heç də hamı şikayət üçün zəng etmir

Operator işinin incəliyini bir neçə dəqiqə ərzində öyrənmək mümkün olur. Mərkəzin Gülər adlı əməkdaşı texniki prosedurları izah edir: **"Gələn zənglərə cavab vermək üçün əlinizdəki cihazın bu düyməsini basın, sualın cavabını öyrənmək, araşdırmaq üçün pauza düyməsinə basın, araşdırma yekunlaşandan sonra yenidən vətəndaşla danışın... Əsas şərt - nəzakət qaydalarını unutmuruq, vətəndaş bir məsələni üç dəfə də soruşsa, eyni nəzakətlə cavab veririk, "sizi gözlətdiyim üçün üzr istəyirəm" cümləsini isə mütləq deyirik..."**

Beləcə, ilk zəngimiz gəlir. Xoş səsli bir xanımdır. Öncə bayram münasibətilə təbrik edir, daha sonra arzularını sadalayır: **"Bol ruzi, xoşbəxtlik, çoxlu pul arzulayıram, ay qızım..."** Təşəkkür edirəm, zənginin səbəbini deyir. Məlum olur ki, heç bir şikayəti yoxdur, sadəcə, nazirliyin şöbələrindən biri ilə əlaqə yaratmağa çalışır, amma nömrəni bilmir. Tez pauza düyməsinə basıb, Gülər xanımdan şöbənin nömrəsini öyrənirəm - hər şey qarşımdakı kompüterdə də var zatən - zəng edən xanıma deyirəm. Təşəkkür edib, sağollaşır.

"Elə bu?", - deyib təəccüblənirəm. Şöbənin işçiləri deyirlər ki, heç də bütün zənglər şikayət xarakterli olmur. Məlumat öyrənmək istəyən də var, məsləhət üçün müraciət edən də. Bugünlərdə müraciət edənlərin böyük əksəriyyəti isə birinci sinfə qəbulla bağlı detalları öyrənmək istəyənlərdir. Bundan başqa, 6 yaşı tamam olmayan uşaqların valideynləri, xarici ölkədə təhsil alıb, diplomunun təsdiqlənməsi üçün müraciət edənlər də əsas üstünlüyü təşkil edirdilər.

### Övladını məktəbə yazdırmaq istəyən analar, övladının diplomunu təsdiqlətməyə çalışan atalar...

Az keçmədən daha bir kişi zəng edir. Deyir ki, 5 ay bundan əvvəl övladının diplomunun təsdiqlənməsi üçün müraciət edib, hələ də cavab verilməyib. Ad-soyadını dəqiqləşdirib, kompüterə baxırıq. Məlum olur ki, araşdırma prosesi hələ yekunlaşmayıb. **"Sizin telefon nömrəniz bizim bazada qeydiyyatdadır. Cavab gələn kimi sizə məlumat veriləcək".**

Vətəndaş sağollaşır.

Daha sonra isə bir ana 6 yaşına çatmayan oğlunun sənədlərini məktəbə necə vermək lazım olduğunu soruşur. Valideyn israr edir ki, uşağının sənədlərini həm gimnaziyaya, həm də adi məktəbə verməyə hazırlaşır. Ona lazımi izahat verilir: 6 yaşı tamam olmayan uşaqların sənəd qəbulu iyul ayından etibarən başlanır. Rayon təhsil şöbələrindən birinin rəhbəri zəng edib, hansısa şöbə ilə calaşdırmamızı istəyir. Az keçmədən xaricdə təhsil alan bir tələbənin valideyni diplom təsdiqi üçün müraciət edir.

### Cəmi bir ayda məktəblərdən 172, direktorlardan isə 163 şikayət gəlib

Nə yalan deyim? Həmin dəqiqələrdə heç olmasa rüşvət istəyən bir direktordan, bayram pulu yığan müəllimədən şikayət edən vətəndaş zəngini səbirsizliklə gözləyirəm. Amma orda olduğum bir neçə saat ərzində gələn zənglərin motivi yuxarıdakı kimi oldu. Təsadüf, ya...? Hər halda, reallıq bu idi... Şöbənin əməkdaşları deyir ki, manatın devalvasiyasından sonra təhsil haqqını ödəyə bilməyən, bu sahədə çətinlik çəkən tələbələr də intensiv olaraq onlara müraciət edirlər. Tələbələrə müqavilələrində nə yazıldığı soruşulur, bəzi hallarda möhlət hüququ qazanmaları üçün müvafiq ali məktəbə müraciət olunur və sair.

Şöbədəki statistik rəqəmlərlə maraqlanıram. Təkcə yanvar ayı boyunca məktəblərdən şikayətlərin sayı 172, direktor barədə şikayət isə 163 olub. Zənglərin arası isə kəsilmir. Mərkəz səhər saat 9-dan axşam 17.00-a qədər gələn zəngləri qəbul edir. Saatlar səhər 11 radələrini göstərir, indiyə qədər 129 zəng daxil olub, hələlik onlardan 109-u cavablandırılıb.

Az keçmədən Vətəndaşların Qəbulu Mərkəzinə düşürük. Telefon Məlumat Mərkəzindən fərqli olaraq, vətəndaşlar birbaşa şikayətlərini demək üçün bura gəlirlər. Yenə də oxşar problemlər: sənədləşmə, işlə bağlı müraciət, qəbula düşmək istəyənlər, xaricdə təhsil almaq istəyən tələbələrin sualları... Qəbul ənənəvi qaydadır: mərkəzin girişindəki aparatda müraciətin məzmununa uyğun olaraq müvafiq düymə basılır, aparatdan çıxan kağızla vətəndaşa növbəsi bildirilir, sonra da şikayətçilər xidmətin əməkdaşlarına öz suallarını verirlər.



"Qaynar xətt" 146-ya müraciət etməkdənsə, bura gəlməyə üstünlük verənlərin iki əsas cəhəti var: 1. Onlar özləri ilə sənəd gətirənlərdir 2. Canlı ünsiyyətə, birbaşa müraciətə üstünlük verənlərdir...

### Yaşar Zeynalov: "Vətəndaşlar əvvəl nazirliyə daha çox gəlirdilər, indi isə daha çox zəng edirlər"

**Təhsil Nazirliyi İnformasiya şöbəsinin müdir müavini Yaşar Zeynalovla iş prosesinin sonunda söhbətləşib, gördüklərimizi təhlil etdik. Müsahibimiz öncə bildirdi ki, sözügedən yeni sistem 2014-cü ilin fevralından tətbiq olunur. 146 telefon mərkəzinin daha öncə bu qədər çox sayda vətəndaşları qəbul etmək imkanı olmayıb:** "Gündə 600 vətəndaşın zəngini qəbul etmək mümkün deyildi. Amma indi mövsümündən asılı olaraq, gündə 1000-ə yaxın da zəng qəbul etmək olur. Vətəndaşların Qəbulu Mərkəzinə isə gündə 200 nəfər müraciət edir. Yaxud da yeni qanunvericilik çıxanda bu, zənglərin sayına təsir edir. Əvvəl Telefon Məlumat Mərkəzinə zənglər az idi. Əsasən qəbula gəlirdilər və istəyirdilər ki, birbaşa bura gəlib, problemlərini həll etsinlər. İndi bu tendensiya dəyişib. Vətəndaşlar nazirliyin binasına daha az gəlirlər. Çünki bilirlər ki, 146 vasitəsilə istədikləri məlumatları əldə edə və yaxud da hər hansı vəzifəli şəxsin qəbuluna yazıla biləcəklər".

**Müsahibimiz dedi ki, onlara edilən müraciətlərin böyük əksəriyyətini xaricdə təhsillə bağlı sənədlərin təsdiqini istəyənlər təşkil edir:** "Bəzən vətəndaşlar Təhsil Nazirliyində yubatmaların ola biləcəyi ehtimalına görə narahatlıq keçirirdilər. Amma bu, belə deyil. Təhsil Nazirliyi vətəndaşın oxuduğu ali məktəbə sorğu göndərməlidir. Təəssüf ki, Rusiya, Ukrayna kimi ölkələr sorğunun cavabını yubadırlar. Sorğunun cavabı gəlmədən sənədlərin ekspertlərə verilməsi baş tutmamalıdır. Onlar da elə bilirlər ki, Təhsi Nazirliyi yubadır və sair. Onlara izah olunur ki, bu tarixdə sorğu göndərilib, cavabı gözləyirik".

**Maraqlıdır, direktordan, rektordan... edilən hər şikayətə görə cəzalandırma baş verirmi? Yoxsa şikayəti anonim ediblərsə, araşdırma ehtimalı da zəifləyir:** ""Qaynar xətt"ə müraciət əsasında vətəndaşın dedikləri təsdiqini tapıbsa, direktorlar, kollec, məktəb direktorları, müəllimlərlə bağlı cəzalandırılma da baş verib. Şagirdini döyən müəllimlə bağlı belə hadisələr olub, araşdırıılıb və cəzalandırılıb. Müqaviləsi dayandırılıb. Şikayət təsdiqini tapırsa, bunlar baş verir. Qanunvericiliyə görə, anonim şikayətlər araşdırılmır. Şikayət edən şəxs ad-soyadını bildirməlidir. Ərizə də yazmalı, imzalatmalıdır. Çünki bəzi hallarda şikayətçi öz şikayətindən də imtina edir. Ya deyir ki, mənim yerimə kimsə yazıb. Bəzi hallarda anonim şikayətlər də daxil olur. Amma onlara bildirilir ki, siz narahat olmayın, adınızı deməlisiniz. O adam razılığa gəlirsə, şikayəti də araşdırılır. Əks halda, mümkün deyil. Qanunvericilik buna imkan vermir. Anonim müraciətlər qəbul olunsa, bunlar böhtan xarakterli şikayətlər ola bilər".

**Bundan başqa, qəbula düşmək istəyən vətəndaşın görüşü onun şikayətinin necə araşdırılması da müvafiq şöbənin öhdəsinə düşür. Y.Zeynalovun sözlərinə görə, əgər vətəndaş Təhsil Nazirliyinə gəlirsə, onu tabe quruma göndərirlər:** "Münasib tarixdə vətəndaşın qəbul vaxtı müəyyənləşir. Vətəndaşda artıq tarix olur ki, filan tarixdə, filan müəssisədə qəbula gedir. Sabah vətəndaş yadından çıxarsa belə, onun telefonuna sms göndərilir. Tabe qurumda məsələsinə baxılmayıbsa, aidiyyəti şöbələrin qəbullarına yönləndirilir. Qanunvercilik belədir ki, birinci şöbə müdirinin qəbulunda olmalıdır, əgər məsələsi həll olunmursa, nazir müavininin, həll olunmasa, yaşadığı ərazi üzrə nazirin vətəndaşları qəbul günlərinə yönləndirilir. Amma biz razılıq dərəcəsini də yoxlayırıq. Qəbula gələn vətəndaşın müraciətinə necə cavab verildi. Vətəndaşla əlaqə saxlanılır. Hər şey qaydasındadırsa, həmin müraciət yekunlaşdırılır. Yox, əgər vətəndaş müraciətinin araşdırılmasından narazı qalıbsa, tabe quruma yenidən bu barədə müraciət olunur və yenidən araşdırma gedir".

**Və sonda... Bu da bir günlük "şikayət qəbulu"nun sonu. Görüntüdə hər şey mükəmməldir, sistem çalışır, insan faktoru minimuma endirilib, texnika, kommunikasiya insanların təhsil sahəsindəki problemlərini həll edir. Və bu gündən gəldiyim nəticə: heç bir halda şikayət etməkdən çəkinmək lazım deyil. Ya telefonla, ya canlı. Necə deyərlər, susub narahat olmaqdansa, danışın, qoy narahat olsunlar. Xüsusən də sizi narahat edən məqam gələcəyiniz adlandırdığınız övladlarınız, təhsil sistemimizdirsə... heç çəkinməyin!**

❑ **Sevinc TELMANQIZI**
**Fotolar Aytən ABBASLI**

YENİ MÜSAVAT
N 61 (6382) 17 mart 2016

# Ölünün adına işıq borcu yazıla bilərmi...

**Martın 15-də Milli Məclisin plenar iclasında çıxış edən deputat Yevda Abramov maraqlı açıqlaması ilə gündəmə gəlib. Deputat "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən abonentlərə artıq borc yazıldığını, həmçinin ölmüş şəxslərin adına belə borc gəldiyini iddia etmişdi.**

## "Azərişıq" rəsmisi deputatın ittihamına cavab verdi: "Narazı abonent kodunu göndərsin, araşdıraq, bu haqda məlumat verək"

Belə problemlərin millət vəkili seçildiyi Quba rayonunda da müşahidə olunduğunu deyən Y.Abramov bu cür halların vətəndaşlar arasında ciddi narazılığa səbəb olduğunu qeyd edib: "Abonentlərə milyonlarla manat borc paylanılıb. Mənim özümə 787 manat borc yazılıb. Ancaq mən 11 ildir ki, Bakıdayam. 20 il bundan əvvəl ölmüş adamın adına da 900 manat borc yazılıb. Bunu icra başçısına da çatdırmışam, hesabatda da demişəm. Bu kimin pullarıdır? Ya bu pulları yeyiblər, yeyintidən qalan pullardır, ya da cənab prezidentin humanistliyini, bu pulların amnistiyasını gözləyirlər. Bundan baş aça bilmirəm. "Azərişıq" yaradılıb. Buna nəzarət edilməlidir. Xalqı ayağa qaldırmaq lazım deyil. Sonra da deyirlər ki, Qubada insanlar küçəyə çıxıb. Bəli, çıxmışdı. 5, 10, 100 adam küçəyə çıxmışdı. Mən özüm də, icra başçısı da orda idi. Heç birimiz gizlənməmişdik. Xalq bu cür məsələlərdən narazıdır. İnsanlar prezidentin şəkli ilə küçələrə çıxıb narazılıq edirlər".


Tanrıverdi Mustafayev

**Millət vəkilinin ittihamları ilə bağlı "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev musavat.com-a açıqlama verib. ASC rəsmisi deputatın istifadə etmədiyi elektrik enerjisinə görə borc yazılması məsələsinə münasibət bildirərkən dedi ki, heç bir abonentə istifadə etmədiyi elektrik enerjisinə görə borc yazıla bilməz:** "Narazı abonent kodunu göndərsin, araşdıraq, bu haqda məlumat verək".

**Millət vəkilinin ölən şəxsin adına borc yazılması ittihamına gəlincə isə T.Mustafayev bildirdi ki, bu cür hal qətiyyən ola bilməz:** ""Azərişıq" elektrik enerjisindən istifadəyə görə borcu ölən şəxsin adına yox, mənzilə yazır. Mənzil kimin adınadırsa, borc da onun adına yazılır. İllərdir bu sahədə çalışıram. Yüzlərlə belə abonent var. Mənzil kimin adınadırsa, həmin insan dünyasını dəyişib, amma sənədlər hələ də onun adınadır. Evin digər sakinləri, yaxınları sənədləri mütləq şəkildə dəyişdirməlidir. Dəyişdirmədiyi təqdirdə təbii ki, borc həmin adamın adına göndəriləcək. Ölünün adına heç vaxt borc yazılmır, mənzilə, ünvan görə yazılır. Bu məsələnin çox asan həll yolu var. Biz iki ildir ASAN Xidmətlə əməkdaşlıq edirik. Bir neçə dəqiqə ərzində bu problemi həll etmək, abonent kodunu ev sahiblərindən başqasının adına keçirmək olar. Yüzlərlə belə hal müşahidə edirik. Xahiş edirik, müvafiq qurumlara müraciət edib bu məsələni həll etsinlər".

❑ İ.MURADOV

# Xəstə uşağı olan ata imdad diləyir...

## "Övladım ağır astma xəstəsidir, hər şeyimi satmışam, artıq tükənmişəm, müalicə etdirə bilmirəm, bank da evimi əlimdən alır"


Zamiq Bəşirov

**"Övladım astma xəstəsidir. Onun müalicəsinə pul çatdıra bilmirəm. Xəstəliyini müalicə etdirmək üçün kredit götürmüşdüm, banklara borcum var. Bank evimi əlimdən alır. Övladımın da gözlərimin önündə əzab çəkməsi məni çarəsiz vəziyyətdə qoyub".**

Bu sözləri Şamaxı rayonunun Göylər kənd sakini Zamiq Bəşirov redaksiyamıza gələrək deyib. Şikayətçi aidiyyəti qurumlardan uşağının müalicəsinə köməklik göstərməsini xahiş edir: "2011-ci ildə oğlum Nurlan Şamaxı rayon xəstəxanasında dünyaya gəldi. Uşaq anadan olarkən həkimlər onu əlindən saldı. Başında problem yarandığına görə iki dəfə baş beyin əməliyyatı keçirdi. Daha sonra uşaqda astma xəstəliyi aşkar edildi. Bu xəstəlik bizdə irsidir. Uşaq hazırda aparatdan asılı vəziyyətdədir. Uşağı komissiyadan keçirmirlər. Həkimlər deyir ki, guya uşaq özü düzələcək. Hormonol asılılıqdır. Mən asmaya qarşı uşağımın müalicə olunmasını istəyirəm. Xəstəxanalarda uşağı minimum 10 gün yatızdırmaq 300-500 manata başa gəlir. Uşaq iki aydan bir yatmalıdır. Balamın yaşaması üçün banklara borca girdim. Mal-qaramı satdım. İndi isə işsiz qalmışam. Bütün texnikamı satmışam. Əvvəllər kənddə mal-qara, əkin-biçinlə birtəhər dolanırdıq. Xəstəxanada uşağa bir dərman da olsa pulsuz verilmir. İki aydır ki, AGBank-ın pulunu ödəyə bilmirəm. Evimi girov qoymuşdum. İndi bank mənə 3 ay vaxt verib. Əgər ödəməsəm evimi əlimsən alacaqlar. Sosial müavinət də ala bilmirəm, çünki banka borcluyam. Prezidentə, Mehriban Əliyevaya da yazmışam. Amma görünür, məktublarımı onlara çatdırmırlar. Şamaxı Rayon İcra Hakimiyyətindən də mənə deyiblər ki, bizlik deyil. Balansımızda pul yoxdur. Mən heç kimdən pul istəmirəm. Uşağımı heç olmasa müalicə etdirsinlər. Evimi də əlimdən alsalar, körpə xəstə uşağımla ailəmlə çöldə qalacağıq. Kreditin müddətini 5 il müddətinə uzatsalar, ödəyə bilərəm. Amma 3 ayın içində mənim pul tapmağım qeyri-mümkündür. Uşağın 35 manata olan dərmanı 75 manat olub. Heç dərmanlarını da ala bilmirəm. Çox çarəsiz vəziyyətdəyəm, intihar həddinə çatmışam".

❑ Günel MANAFLI

# Astrologiyaya maraq niyə azalıb...

**Ölkəmizdə astrologiyaya dair çoxlu sayda kitablar, mətbuatda yazılar çap olunur. Bir sıra qəzetlərin son səhifəsində, saytlarda günlük astroloji proqnozlar da hər gün yer almaqdadır. Bir çox insanlar hər səhər bürclərinə uyğun olan günlük astroloji proqnozu oxuyur və gününün planını qurur. Hətta neqativ bir şey yazılarsa, həmin gününü evdə keçirən insanlara da rast gəlmək mümkündür. Diqqət etmisinizsə, bəzi oxucular qəzeti alarkən onun sonuncu səhifəsindən, məhz astoloji proqnozdan oxumağa başlayırlar.**

Ancaq son vaxtlar astrologiyaya maraq sanki azalıb.

Maraqlıdır, astroloqlar bu barədə nə düşünür? Bu sahəyə maraq niyə azalıb?



**Səbuhi Rəhimli: "Kritik dönəmlərdə insanların buna marağı daha da artır, nəinki azalır"**



**Firudin Qurbansoy: "Adamlar maddi problemlərə görə astrologiyaya dair kitabları ala bilmirlər"**

**Astroloq Səbuhi Rəhimli** astrologiyaya marağın azalmadığını, əksinə, artdığını dedi: "Mən həmişə ilin sonunda iki kitab çıxarmışam. Həmişə də satılıb. Ötən il isə iki yox, üç kitab çıxartmışam. Onun da hamısı satılıb, hesabatı aparıb qurtarmışıq. Devalvasiyanın olmasına baxmayaraq tiraj da enməyib. Bu cür kritik dönəmlərdə insanların astologiyaya marağı daha da artır, nəinki azalır. Mənim pullu nömrəm var. Onun dəqiqəsi çox bahadır. Ancaq buna baxmayaraq, mənə indiki kimi çox zəng olmamışdı. Efirlərə də indiki qədər çox çağırılmamışam. Gedib-getməmək artıq mənim vaxt edib-etməməyimlə bağlıdır. Son iki ayda mən 20 dəfədən çox efirə çıxmışam. Hələ 20-sindən də imtina etmişəm".

**Astroloq insanların ümid axtaranda astroloji mənbələrə daha çox üz tutduğunu dedi:** "Astrologiyaya maraq azaldığı fikrini qətiyyən qəbul etmirəm. Əksinə, insanlar ümid axtaranda istər-istəməz astroloji mənbələrə daha çox müraciət edirlər. Hətta onun mahiyyətinə varmadan içlərində olan suallara cavab tapmaq ümidi ilə, hətta kimsə yalandan yazsa belə ona ümid edirlər. Mən bu işi görən bir adam kimi deyə bilərəm ki, astrologiyaya maraq azalmayıb. Kitablarım satılır, qəzetimiz də çıxır. Fevraldan sonra daha da çox satılır. Zəng edib sual verənlər, maraqlananlar da kifayət qədərdir. İnsanlar qəzetləri alanda ilk olaraq günlük astroloji proqnozlara baxır. Bizim "Qoroskop" qəzetinin son bir ayda tirajı 1500 nüsxə artıb. Mən köşklərə yaxınlaşanda məlumat alıram ki, qəzetimizi hətta nisyə alanlar var. Nisyə alanlar varsa, deməli, ümumiyyətlə, istəsə belə ala bilməyənlər də var. Bütün bunları nəzərə aldıqdan sonra astrologiyaya marağın azaldığını demək doğru deyil".

**Astroloq Firudin Qurbansoy isə insanların astrologiyaya az maraq göstərməsinin səbəbini maddi vəziyyətlərinin çətinliyi ilə əlaqələndirdi:** "Deməzdim astrologiyaya maraq azalıb. Sadəcə olaraq, insanların maddi vəziyyəti çox aşağı düşdüyünə görə astrologiyaya dair kitab və sairəni ala bilmirlər. Yaza bilən astroloqlar da kifayət qədər az kitab nəşr etdirir. Elə buna görə də adama elə gəlir ki, astrologiyaya maraq azalıb. Əksinə, belə vaxtlarda maraq bir az da çoxalır. Həm astroloqların maddi imkanlarının olmaması, həm də alıcıların maddi vəziyyəti insanlarda astrologiyaya marağın azalması fikrini yaradır".

❑ Günel MANAFLI

# Qəza törədən tanınmış prodüser: "İçkili olsaydım..."

## "Avtomobilim cərimə meydançasındadır"


Təranə Səmədova

**Prodüser Təranə Səmədova bazar ertəsi gecəsi idarə etdiyi "Hyundai" markalı avtomobil ilə "Range Rover" markalı avtomobilə arxadan çırpılıb. Bir müddət əvvəl yol polisi əməkdaşları tərəfindən sükan arxasında sərxoş vəziyyətdə saxlanılan prodüserin yenidən içkili halda sükan arxasına keçdiyi iddia olunub.**

Hadisə ilə bağlı musavat.com saytına açıqlama verən prodüser iddialara cavab verib. Sərxoş olmadığını bildirən Səmədova avtomobilinə dəyən ziyandan danışıb:

"Qəza zamanı içkili olmamışam, fikrim yayınmışdı. Diqqətsizlik etdiyim üçün ara məsafəni düzgün götürməmişəm, nəticədə avtomobilim önümdəki ilə toqquşdu. Mənim və toqquşduğum avtomobilə ziyan dəyib. Ziyanın məbləğini dəqiq deyə bilmərəm. Avtomobilim cərimə meydançasındadır, sığorta şirkətini çağırmışam, gəlib hesablayacaq. İçkili olsaydım, sığorta şirkəti avtomobilimə yaxın durmazdı. Sığorta ödəniş edəcəyinə qərar verəndən sonra maşınım servisə aparılacaq və qiymətləndirmə olacaq. Yastıqlar açılıb deyə düşünürəm ki, dəymiş ziyan 10 min manatı keçəcək. Xərci dəqiq bilmirəm".

❑ Könül İBRAHİM

# Bakıda 25 yaşlı qadın itkin düşüb



**İTKİN DÜŞƏN - SADIQOVA XUMAR RAMİZ QIZI**
**2015-Cİ İLDƏN AXTARILIR**
**7 YAŞLI ÖVLADI ANASININ YOLUNU GÖZLƏYİR**
**GÖRƏNLƏR 050-299-29-20**
**NÖMRƏSİNƏ MƏLUMAT VERSİNLƏR**

**Bakıda 25 yaşlı qadın itkin düşüb. Onun 7 yaşlı oğlu da var. Oxu.az xəbər verir ki, Xətai Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayon sakini Ramiz Sadıqov 2015-ci ilin sentyabrında polisə ərizə ilə müraciət edərək qızı, 1991-ci il təvəllüdlü Xumar Sadıqovanın itkin düşməsi barədə məlumat verib.**

Evdən gedərkən o özü ilə heç bir sənəd götürməyib və 7 yaşlı oğlunu da aparmayıb. Uşaq hazırda baba və nənəsinin himayəsindədir. Valideynləri yoxdur deyə babası uşağı orta məktəbə də düzəldə bilməyib.

Hazırda X. Sadıqovanın tapılması istiqamətində axtarışlar davam etdirilir.

Polisdən itkin düşən ananın fotosunu da təqdim ediblər. Onu görənlərdən və tanıyanlardan (050) 299-29-20 nömrəli telefona məlumat vermələri xahiş olunur.



## Oğru əmioğlular tutuldu

**Sumqayıt polisi Novxanı bağlar massivində 10 evdən oğurluq etməkdə şübhəli bilinən iki əmioğlunu saxlayıb. Sumqayıt Şəhər Polis İdarəsinə Novxanı bağlar massivində yaşayan vətəndaşlar ərizə ilə müraciət edərək, onlara məxsus bağ evlərinin naməlum şəxslər tərəfindən qarət olunması ilə bağlı məlumat veriblər.**

Hüquq-mühafizə orqanı əməkdaşlarının keçirdiyi əməliyyat tədbirləri nəticəsində oğurluq hadisəsini törətməkdə şübhəli bilinən iki əmioğlu - Novxanı qəsəbə sakini 20 yaşlı Ehtiram Əliyev və Etibar Əliyev saxlanılıb. Maraqlı məqamlardan biri isə odur ki, saxlanılan şəxslər özləri də Novxanı bağlar massivində yaşayır. Ehtiramın sözlərinə görə, sözügedən ərazidə mənzillərinə daxil olduqları şəxslərin qış fəslində paytaxtda yaşadıqlarını qabaqcadan müəyyənləşdiriblər. Oğruların hədəfi mühafizə olunmayan evlərdən oğurluq etmək olub. Onlar əsasən kombi aparatları, televizorlar və soyuducuları oğurlayıblar.

Qohumlar əldə etdikləri qənimətləri Ramana qəsəbəsində satıblar. Malların qiymətinin ucuz olması alıcılarda şübhə yaradanda Etibar həmin malları Dağıstandan gətirmələri ilə izah edib. Faktla bağlı Sumqayıt Şəhər Polis İdarəsində Cinayət Məcəlləsinin "Oğurluq" maddəsi ilə cinayət işi başlanıb. Araşdırma aparılır.

## Bakıda ən çox cinayət törədilən rayonların adları açıqlandı

**Bakı şəhərinin rayonları üzrə ən çox cinayət hadisələri Binəqədi rayonunda qeydə alınır."Report" Bakı Şəhəri Statistika İdarəsinə istinadən xəbər verir ki, 2014-cü ildə Bakı şəhəri üzrə cəmi 12 288 cinayət qeydə alınıb. Bu rəqəm 2013-cü ildə 10 984, 2000-ci ildə 5 539 olub. 2014-cü ildə Binəqədi rayonunda 1 504 cinayət qeydə alınıb. 2013-cü ildə bu rəqəm 1 414, 2000-ci ildə 516 olub.**

Xətai rayonunda 2014-cü ildə 1 344 cinayət qeydə alınıb. 2000-ci ildə bu göstərici 679 olub.

Bakı şəhərinin rayonları üzrə ən az cinayət Səbayeil rayonunda qeydə alınır. Belə ki, 2014-cü ildə bu rayonda 700 cinayət qeydə alınıb. 2000-ci ildə bu göstərici 531 olub.

Suraxanı rayonunda qeydə alınan cinayətlərin sayı isə sürətlə artıb. 2000-ci ildə rayonda 336 cinayət qeydə alındığı halda, 2014-cü ildə bu rəqəm 849 olub. Eləcə də Sabunçu rayonunda 2000-ci ildə 454, 2014-cü ildə 1148 cinayət qeydə alınıb. Nizami rayonunda 2000-ci ildə 457, 2014-cü ildə isə 1 202 cinayət qeydə alınıb. Nərimanovda 2000-ci ildə 554, 2014-cü ildə 1 080, Nəsimi rayonunda 2000-ci ildə 731, 2014-cü ildə 1 483 cinayət qeydə alınıb. Yasamalda bu göstərici son 10 ildə 681-dən 1 325-ə yüksəlib.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

nar | citynet internet & iptv

## "Nar-CityNet" yeni kampaniyaya start verdi

"Nar-Citynet"ə qoşul və sifariş etdiyin xidmətdən pulsuz istifadə et!

**"Nar-CityNet" yeni yaz kampaniyasına start verdi. Belə ki, 30 aprel 2016-cı il tarixinədək ev və ya ofis üçün "Nar-CityNet" xidməti sifariş edəcək abunəçilər bu xidmətlərdən 2 ay pulsuz istifadə etmək imkanı əldə edirlər. Bundan əlavə, 4 "Nar" nömrəsindən ibarət "Ailəm" paketi də bu müddət ərzində abunəçilərə hədiyyə edilir.**

**Kampaniyaya "Nar-CityNet" internet provayderinə yeni və ya təkrarən qoşulan, ikinci xətt çəkdirən, IPTV xidməti sifariş edən və ya "Nar-CityNet"in xidmət dairəsinə düşən bütün abunəçilər qoşula bilərlər. Ev və ya ofisin "Nar-CityNet" internet provayderinin xidmət dairəsində olub-olmadığını "Nar" operatorunun rəsmi səhifəsinə daxil olaraq və yaxud "Nar-CityNet" çağrı mərkəzinə(012 537 77 77) zəng edərək yoxlamaq mümkündür.**

**"Nar-CityNet" Abşeron yarımadasının böyük hissəsini əhatə edir. Xidmətin hər hansı ünvanda mövcudluğunu www.citynet.az internet səhifəsində də yoxlamaq mümkündür. Hər bir istifadəçi özünə uyğun tarifi seçərək, yüksəksürətli və keyfiyyətli limitsiz internet xidmətindən ev üçün aylıq 18 AZN, iş yerləri üçün isə aylıq 29 AZN ödəməklə yararlana bilər və xidmətdən istifadənin rahatlığını ilk gündəcə hiss edər.**

**Daha ətraflı məlumatı www.nar.az internet səhifəsindən öyrənə bilərsiniz.**

## Bərdədə mikroavtobus qəzaya düşdü, 12 nəfər yaralandı

**Bərdə rayonunda mikroavtobus qəzaya düşüb, 12 sərnişin yaralanıb. "Report" xəbər verir ki, hadisə rayonun Gərənə kəndi ərazisində qeydə alınıb. Belə ki, VAZ 21015 markalı avtomobillə Gərənə kənd istiqamətində hərəkətdə olan "Ford" markalı mikroavtobus toqquşub. Nəticədə mikroavtobusda olan 16 nəfər sərnişindən 12 nəfəri müxtəlif dərəcəli bədən xəsarətləri alıb.**

Faktla bağlı Bərdə Rayon Polis Şöbəsində (RPŞ) araşdırmalara başlanılıb. Hadisəyə səbəb ilkin versiya kimi VAZ 21015 markalı avtomobilin dönmə əməliyyatı zamanı yol hərəkəti qaydalarını pozaraq mikroavtobusun hərəkət zolağına çıxması göstərlib.

## Telefon oğrusu müşahidə kamerasına düşdü

**Bakıda telefon oğrusu müşahidə kamerasına düşüb. BAKU.WS-in məlumatına görə, bir nəfər telefon satan mağazaya yaxınlaşaraq cib telefonu almaq istədiyini bildirib. Satıcı mobil telefonu müştəriyə təqdim edərək onun göstəriciləri ilə bağlı danışıb.**

Telefonu alacağını söyləyən şəxs satıcının başını qatmağa başlayıb. Ətrafa baxaraq vəziyyəti müşəhidə edib və fürsət yaranan kimi telefonu götürüb qaçıb. Videonu sosial şəbəkədə jurnalist Hafiz Heydərov paylaşıb.

## Müğənninin oğlunun törətdiyi qətlin təfərrüatı

**Bərdə rayonunda törədilmiş qətl hadisəsinin səbəbi məlum olub. Lent.az-ın əldə etdiyi məlumata görə, mərhum müğənni Vidadi Bərdəlinin qeyri-rəsmi nikahdan dünyaya gəlmiş oğlu, 26 yaşlı Tural Allahverdiyev 24 yaşlı Məkan Rüstəmovu 85 manat pula görə qətlə yetirib.**

Bəlli olub ki, müğənninin oğlu Bərdə Rayon Mənzil Kommunal İstismar Sahəsində işləyib və məişət tullantılarının toplanması ilə məşğul olurmuş. O, tullantılar arasından topladığı butulka və əlvan metalları M.Rüstəmova satırmış. Beləliklə, M.Rüstəmovun T.Allahverdiyevə borcu yaranıb.

Dünən T.Allahverdiyevlə M.Rüstəmov arasındakı münaqişə də məhz həmin alverdən yaranmış 85 manat borc üstündə baş verib. Əvvəllər xuliqanlıq etdiyinə görə məhkumluq həyatı yaşamış 26 yaşlı Tural bıçaqla M.Rüstəmova 3 zərbə endirərək onu öldürüb.

## Elan

**Gürcüstan Respublikası vətəndaşı İbrahimov Ayvaz Məhəmməd oğluna Azərbaycan Respublikası Miqrasiya Xidməti tərəfindən 12.02.2013 tarixində verilmiş və 12.02.2018-ci ilə kimi etibarlılıq müddəti olan 0008120 seriyalı Azərbaycan Respublikası ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi itdiyinə görə etibarsız sayılır.**

## Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

**Dəm qazı can almaqda davam edir. Martın 8-də paytaxtda ana və 3 yaşlı oğlu vanna otağında dəm qazından boğularaq ölüb. Martın 10-da Binəqədi rayonunda 2 nəfər dəm qazından boğularaq ölüb. Martın 11-də yenə Binəqədi rayon sakini 34 yaşlı Nuranə Bayramova yaşadığı evdə dəm qazından boğularaq ölüb. Bunlar ötən həftə ərzində baş verən və mətbuata bəlli dəm qazının qurbanı olanlardır. Dəm qazı insanların qəniminə çevrilib. Demək olar ki, hər gün dəm qazından bir neçə nəfər boğularaq dünyasını dəyişir. Son illərdə bu hal daha da çoxalıb.**

# Qazın dəmi, xalqın qəmi, işin çəmi...

## İbrahim Kərbalayev: "Yalnız fevral ayı ərzində 64 min 181 mənzilə texniki baxış keçirilib"

Evi isitmək üçün quraşdırılan qaz sobaları hər il yüzlərlə insanın həyatını söndürür. Payız aylarında quraşdırılan bu sobalar bir də havalar tam isinəndə çıxarılır. Bir çox mütəxəssislər boğulmaların səbəbini tüstü bacalarının yaxşı təmizlənməməsində, qaz sobalarının düzgün quraşdırılmamasında və əhalinin qazla təmasının həddindən artıq olması ilə əlaqələndirirlər. Mütəxəssislərin fikrincə, dəm qazından ölüm hallarının artmasında əsas günahkar vətəndaşların özləridir. Çünki qaz sobalarının işlədiyi otaq, isti olsun deyə, tam qapalı vəziyyətdə saxlanılır. Nəticədə sobadan çıxan zərərli maddələr dar və qapalı otaqda toplanır və zəhərlənmə baş verir. Mövcud standarta görə, düz axımlı su axıdıcıların tüstü bacaları ildə iki dəfə, digər qızdırıcı cihazların bacaları isə ildə bir dəfə təmizlənməlidir.

**Maraqlıdır, "Azəriqaz" evdə quraşdırılan bu cihazlara nəzarət üçün texniki baxış keçirirmi?**

**"Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev yalnız fevral ayı ərzində 64 min 181 mənzilə texniki baxış keçirdiklərini dedi:** ""Azəriqaz" İstehsalat Birliyi abonentlərinin mavi yanacaqdan istifadə qaydalarına dair təlimatlandırılmasına, maarifləndirilməsinə hər zaman xüsusi diqqət yetirir. Aidiyyəti qurumlarla hər zaman profilaktik tədbirlər aparılır, telekanallar vasitəsilə videoçarxlar nümayiş olunur, mətbuatda KİV-lər vasitəsilə xəbərdarlıq edilir, küçələrə reklam lövhələri asılır. Həmçinin təhlükəsizliklə bağlı xüsusi bukletlər paylanılır. Bütün bu görülən işlərin nəticəsidir ki, təbii qazdan xoşagəlməz hadisələrin baş verməsində xeyli azalma müşahidə olunur. Onu da qeyd edim ki, görülən tədbirlərə baxmayaraq bəzən dəm qazından zəhərlənmə halları baş verir ki, bunu da araşdırdıqda məlum olur ki, abonentlərin təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir. Nəzərinizə çatdırım ki, təkcə fevral ayı ərzində 64 min 181 mənzilə "Azəriqaz" İstehsalat Birliyinin qaz kəmərləri və cihazlara texniki xidmət sahəsinin çoxsaylı mühəndisləri tərəfindən texniki baxış keçirilib. Texniki baxışı yerinə yetirən mühəndislərin əsas vəzifəsi mənzildaxili qaz xətlərinə qeyri-qanuni birləşmələr, qaz cihazlarının sayının yerinin dəyişdirilməsinə nəzarət etmək və istehlakçıları mavi yanacaqdan istifadə qaydalarına dair təlimatlandırmaqdan ibarətdir. Mənzillərə texniki baxış keçirilən zaman bəzən hər hansısa bir qüsur aşkarlanırsa, əməkdaşlarımız tərəfindən müqavilənin şərtlərinə uyğun olaraq akt tərtib olunur, göstərilən qüsurlar abonentə bildirilir. Bununla da mənzilin qaz təchizatı dayandırılır. Yaranmış qüsur aradan qaldırıldıqdan sonra abonent tərəfindən təkrar "Azəriqaz"a müraciət olunur. Təkrar texniki baxış keçirildikdən sonra aşkarlanan qüsur aradan qaldırılıbsa, mənzil qazla təmin olunur. Bu cür texniki baxışların keçirilməsi mövsümi xarakter daşımır. İlin bütün fəsillərində mənzillərə texniki baxışlar keçirilir. Texniki baxış keçirilən zaman mənzildə istifadə olunan nasaz qaz cihazları, sobaları aşkarlanarsa, onlar istismardan xaric edilir".



**İ.Kərbalayev abonentləri Novruz bayramı ərəfəsində xüsusilə diqqətli olmağa çağırdı:** "Qarşıdan Novruz bayramı gəlir. Bütün qaz istehlakçılarından bayram ərəfəsində də hər hansı bir xoşagəlməz hadisənin baş verməməsi üçün diqqətli olmalarını və təhlükəsizlik qaydalarına riayət etmələrinə xahiş edirik".

### Dəm qazından zəhərlənmə zamanı nə etməli?

Dəm qazı iysiz, rəngsiz, dadsız bir qaz olduğu üçün zəhərlənmə halları qətiyyən nəzərə çarpmadan və zərərçəkənin xəbəri olmadan baş verir. Dəm qazı *(elmi adı CO - yeni karbon monooksid)* yanma prosesi olan istənilən yerdə yarana bilər. Nəfəs aldığımız havada CO qazının sıxlığı 0,08 faiz olduqda insan başağrısı hiss edir, 0,32 faizdə huşun itməsi və yarım saat ərzində ölüm baş verir. CO-nun sıxlığı 1,2 faiz olarsa, insan 2-3 dəqiqə ərzində ölə bilər. Dəm qazı ilə zəhərlənmə yüngül dərəcəli, orta ağır və ağır dərəcəli ola bilər. Dəm qazı ilə zəhərlənmə zamanı zərərçəkəndə başgicəllənmə, başağrısı, qulaqlarda küy, ürəkbulanma, qusma, yuxululuq, müvazinətin itməsi, sayıqlama, hallüsinasiyalar, qıcolma tutmaları, koma kimi əlamətlər olur. Ən pis halda isə tənəffüs mərkəzi iflic olur və bunun nəticəsində də ölüm halı baş verir. Zərərçəkmiş nəfəs almırsa və ya tənəffüsü zəifdirsə, ona süni nəfəs vermək lazımdır. Zərurət olduqda ürək masajı edilməlidir. Zərərçəkmiş şəxsi dərhal təmiz havaya *(ilin isti vaxtlarında evdən bayıra, soyuq vaxtlarda isə havası dəyişdirilən başqa otağa)* çıxartmaq, arxası üstə rahat uzandırıb dar və sıxıcı paltarlarını soyundurmaq lazımdır. Həmçinin zərərçəkənin ətraflarını və bədənini ovuşdurmaq, başına və sinəsinə soyuq kompres qoymaq lazımdır. Əgər zərərçəkmişin huşu özündədirsə, ona isti çay içirdilməlidir. Yox, əgər huşunu itiribsə, naşatır spirtində isladılmış pambığı onun burnuna yaxınlaşdırıb iylətmək olar. Tənəffüsü dayanıbsa, dərhal süni tənəffüs verməyə başlamaqla təcili yardım çağırmaq lazımdır.

❑ **Günel MANAFLI**

# Zirzəmidə yaşayan milyonçunun acı həyat hekayəsi...

## "Əvvəllər milyonlarım var idi, hamı başıma fırlanırdı, indi zirzəmidə yaşayıram"

**"Əvvəllər milyonlarım var idi, hamı başıma fırlanırdı, indi zirzəmidə yaşayıram". Bu sözləri 2 ilə yaxındır acınacaqlı durumda, bina zirzəmisində yaşayan Loğman Məmmədov deyir. L.Məmmədovu facebook sosial şəbəkəsində edilən paylaşımlar sayəsində tanıdım. Onun yardıma ehtiyacının olduğu, binanın zirzəmisində acınacaqlı vəziyyətdə yaşadığı deyilirdi.**

Bunu öyrəndikdən sonra L.Məmmədovun gecələdiyi ünvana yola düşdük. O, köhnə bir binanın zirzəmisində nəm otaqda yaşayır. İçəri daxil olan zaman tualetdən gələn pis qoxu və natəmizlik diqqəti çəkirdi. Belə bir yerdə nəinki yaşamaq, 5 dəqiqə qalmaq belə insan sağlamlığı üçün zərərlidir. Amma Loğman Məmmədov burada yaşayır. Çünki başqa çarəsi yoxdur.

Onunla söhbətə başlayırıq.

Loğmanın gözləri dolur, ilk kəlməsi "Bu qapıdan uzun zamandır ki, heç kim girmir. Vaxt var idi ki, hamı ətrafımda fırlanırdı. İndi heç kimə lazım deyiləm" oldu.

***- Siz buraya necə düşmüsünüz?***

- Mən 18 il Abşeronda, neft bazasında müdir işləmişəm. Hər şeyim var idi. Evlərim, villalarım, maşınlarım, torpağım olub. Müdir vəzifəsindən çıxandan sonra bir müddət heç bir işlə məşğul olmadım. Bir dostum məni Zəkiyyə adlı bir xanımla tanış elədi. Həmin qadın Gəncədə "Unibank"ın müdiri idi. Mənə təklif elədi ki, Bakıda yaradacağı banka sponsor olum.

Həmin qadın Gəncədəki bankı bağlayıb, Bakıda "AtraBank"ın daxilində kredit şöbəsi yaratdı. Mən ona 800 min manat pul verdim. Bundan əlavə, evlərimi, mülklərimi satdım, banklara, qızıllarımı girov qoyub, hamısını ona verdim. Dostlarımı da banka pul qoymağa dəvət etdim. Güvəndim, səhv elədim.

Bir müddət sonra həmin qadın həm mənim, həm də digərlərinin pullarını götürərək qaçdı. İnterpola şikayət etdim, axtardılar, tapa bilmədilər. Hər dəfə adı bir ölkədən çıxdı. Bu günə kimi də həmin qadın tapılmayıb.

***- Bəs sizin ailəniz, yaxınlarınız yoxdur?***

- Var. Amma yoldaşımdan boşanmışam. Onlar da mənə sahib çıxmırlar. Qalmışam burada... Xəstəyəm, bir dəfə əməliyyat olunmuşam. Amma hələ də tam sağalmamışam. Müalicəyə, yardıma ehtiyacım var.

Məsələni bu yerdə saxlamaq istəmədik. Belə bir insanın niyə bayıra atılmasını, ona sahib çıxılmamasını araşdırmağa qərar verdik. İlk olaraq Loğman Məmmədovun keçmiş həyat yoldaşı Sürayə xanımla əlaqə saxladıq. Onunla danışandan sonra bəzi bilinməyən məqamlar ortaya çıxdı.

**Məsələn, telefon danışığından sonra məlum oldu ki, L.Məmmədov Sürayə xanımdan 14 il öncə ayrılıb və ikinci dəfə ailə həyatı qurub:** "O, məni 14 il qabaq 3 uşağımla, sahibsiz, gücsüz durumda atdı, getdi. Özünə təzə arvad aldı. Heç bizi düşünmədi. Qızım da, özüm də xəstəyəm. Maddi imkanım da yoxdur. Loğmanla biz 14 il qabaq boşanmışıq. O, artıq mənim üçün bir yad kişidir. Getsin, ikinci arvadından ümid diləsin. Ceyran adlı qadına görə bizi atdı, getdi. İndi də ondan yardım istəsin.

O, bizə zülm edirdi. Döyürdü, əziyyət verirdi. Neçə dəfə küçədə sürüyə-sürüyə məni döyüb. Hamı buna şahiddir. Elə insanla bir evdə yaşamaq olardı? Hər şeyimizi satdı, qızıllarımı girova qoydu. Pullarını Ceyrana xərclədi. Qalanlarını da itirdi. İndi yenə məndən kömək istəyir? Bizdən uzaq dursun".







❑ **Məhəmməd Türkmən**
❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 61 (6382) 17 mart 2016



## Ən çox tibb bacıları boşanır

Diş həkimləri daha çox başqa peşənin sahibləri ilə evlənirlər. Ən çox boşanan peşə sahibləri isə dekoratorlardır. Bu maraqlı faktları amerikalı sosioloqlar üzə çıxarıblar. 2014-cü ildə ABŞ-da dantistlərin 81%-i evləniblər və ya ərə gediblər. Bundan başqa, baş direktor vəzifələrində çalışan adamlar da tənha yaşaya bilmirlər. İstehsalat sahəsində çalışanlar, terapevtlər, ortopedlər, okulistlər və zəhmət adamları da evlənməyi arzu edirlər.

Ancaq bəzi peşə sahibləri var ki, onlar tənhalığa məhkumdurlar. Bunlara kinomexaniklər şamil edilir. Sosioloqlar ən çox boşanan peşə sahibləri haqda da söz açıblar. Sən demə, ən çox boşanan adamlar dekoratorlar, qazma qurğularının operatorları, tibb bacıları, sosial işçilər, malaçılar və hərbçilərdir. Onların nikahları uzun sürmür.



## Yuxu həsrətləri... 5 dollar verib yatırlar

Yaponiyada yorğun və yuxu həsrətində olan şəxslərin yatması üçün yuxu otaqları istifadəyə verilib. Hotellərdən fərqli olaraq, insanlar bu otaqlarda bir və ya bir neçə saat qalaraq həmin müddətin pulunu ödəyirlər. Yuxu otaqlarına müraciət edənlərin böyük əksəriyyətini evində azyaşlı uşağı olan şəxslər təşkil edir. Onlar gecə saatlarında yuxuya həsrət qaldıqları və ofisdə də yata bilmədikləri üçün sözügedən xidmətdən maksimum istifadə edirlər. Bir saatlıq yuxu otağının məbləği 5 dollardır. Otaqlarda həzin musiqi, rahat atmosfer var. Hətta orada müştərilər bəlli saatdan sonra onları oyatmaq üçün xidmət sahibinə müraciət də edirlər. Bunun üçün əlavə 1 dollar məbləğində vəsait ödəmək lazımdır.

# Pis xatirələri silmək olacaq



Amerikanın Stanford Universitetindəki araşdırmaçılar siçanların yuxu zamanı yaddaşlarını, bəzi xatirələrini silməyə müvəffəq olan bir dərman hazırlayıblar. Dərman yüz faizlik uğur göstəricisinə nail olarsa, onu insanlar üzərində də təcrübədən keçirəcəklər. Stress və gərginlik müalicəsini olduqca asanlaşdıran dərman sayəsində insanların keçmişdə yaşadığı travmalara aid xatirələri daim xatırlamalarının qarşısı alınacaq. Ənənəvi müalicələr insanları acı və qorxu dolu xatirələrdən uzaqlaşdırmağı bacarsa da, onların geri gəlməyəcəyinə heç kim təminat vermir. Dərmanın təcrübədən keçirilməsi zamanı öncə siçanların beynində ciddi qorxu yaradıblar. Daha sonra travma yaşayan siçanları yatan zaman keçmiş vəziyyətlərinə qaytarıblar. Alimlər təcrübə zamanı istifadə olunan dərmanların insanlar üçün təhlükəli olduğunu və onun üzərində işləyəndən sonra insanlara tətbiq olunacağını deyib.

# Qadın qısqancdırsa.... kor ola bilər



"Kor qısqanclıq" ifadəsi, sən demə, sadəcə, obrazlı şəkildə söylənilmiş sözlər deyilmiş. "The Teleqraph"ın məlumatına görə, alimlər müəyyənləşdiriblər ki, qısqanc olmaq hissi qadınların birbaşa şəkildə görmə qabiliyyətlərinə mənfi təsir edir. ABŞ-ın Delaver İnstitutu tərəfindən aparılan araşdırmalar zamanı çox maraqlı nəticələr qeydə alınıb. Müəyyənləşdirilib ki, qısqanc olan qadınlar o dərəcədə mənfi emosiyalara qapılırlar ki, axtardıqları əşyaları belə tapmaq iqtidarında olmurlar. Laboratoriya şəraitində aparılan təcrübədə yanaşı, lakin ayrı-ayrı kompüterlərin arxasında oturan cütlüklər iştirak ediblər. Təcrübədə iştirak edən qadınların vəzifəsi sürətlə bir-birini dəyişən təbiət təsvirlərinin fonunda ara-sıra yer alan emosiyalara mənfi təsir göstərən kadrları yox etməyə cəhd göstərmək olub.

Kişilər isə ekranda cəlbedici təsvirləri seçməli idilər. Bu anda eksperimenti aparan əsas mütəxəssis qadınlara kişilərin fotolardakı qadınların xarici görkəmlərinə qiymət verdiklərini açıqlayıb. Eksperimentin sonunda isə qadınlar öz sevgililərinin digər qızları qiymətləndirməsini eşitməyin nə dərəcədə ağır olduğunu söyləyiblər. Məlum olub ki, daha çox qısqanclıq nümayiş etdirən qadınlar onlara tapşırılan şəkilləri tapmaqda çətinlik çəkiblər. Qısqanclıq və "korluq" hissləri isə qadınların öz sevgililərinin digər qızlara qiymət verməsini fikirləşdikləri an üst-üstə düşüb. Mütəxəssislər bildiriblər ki, məhz bu təcrübə sosial münasibətlərlə həqiqətdə qəbul olunanlar arasında sıx əlaqələrin mövcudluğunu sübut edir.




**QOÇ** - Bayram ovqatlı gün olduğunu nəzərə alan ulduzlar günün əsas saatlarını istirahətə həsr etməyinizi məsləhət görür. Çox da uzaqda yerləşməyən ünvanlara qonaq getməyə də dəyər.

**BUĞA** - Uzaq səfərə çıxmaq bu gün yalnız sizin bürcdən olanlar üçün müvəffəqiyyətlidir. Bununla yanaşı, maliyyə məsələlərinin həllində və fəaliyyətdə də müəyyən irəliləyişlərə nail ola bilərsiniz.

**ƏKİZLƏR** - Yeni əlaqələr yaratmaq üçün bütün gücünüzü axtarışlara həsr etməlisiniz. Bu gün sizə daha əzmkarlıq göstərmək məsləhətdir. Nahardan sonra varlanma ehtimalınız var.

**XƏRÇƏNG** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimdə ciddi məbləğdə borc verməyəsiniz. Əks təqdirdə, həftə boyu problemləriniz səngiməyəcək. Axşama yaxın sevindirici xəbər eşidəcəksiniz.

**ŞİR** - Hər mənada uğurlu vaxtdır. Həm ailə-sevgi münasibətlərində, həm də məqsədlərə yetişmək istiqamətində uğurlarınız artacaq. Özünüzə güvənməklə çox zirvələri fəth edəcəksiniz.

**QIZ** - Böyük dəyişikliklər astanasındasınız. Daxili süstlüyünüz də səngiməkdədir. Elə addımlar atın ki, qarşınızda duran şanslardan bəhrələnəsiniz. Sevgidə də uğurlarınız labüddür.

**TƏRƏZİ** - İş yerində həmkarlarınızla mübahisələriniz gözlənilir. Bunu nəzərə alıb təmkin göstərin. Ən azı ona görə ki, əsəbləriniz qaydasında deyil. Sevginizə xələl gətirən hərəkətlərə son qoyun.

**ƏQRƏB** - Novruz Bayramına qədər görəcəyiniz işləri yaxşı-yaxşı planlaşdırın. Çünki bu təqvimdə başınıza yeni ideyalar gələcək. Bununla yanaşı, səhhətinizi qorumağı da unutmamalısınız.

**OXATAN** - Ümumi əhvalınızda yaranmış passivlik aradan qalxacaq. Odur ki, işlə bağlı planlarınızın həllini sürətləndirin ki, uğurlara yetişəsiniz. Yersiz mübahisələrdən əl çəkin.

**OĞLAQ** - Saat 14-ə qədər münaqişəli situasiyalara cəlb olunma ehtimalınız yarandığından həmin müddəti yalnız ev şəraitində keçirməlisiniz. Sonrakı ərəfəni isə xoş ovqatda başa vuracaqsınız.

**SUTÖKƏN** - Bütün vaxtınızı görüş və əyləncələrə həsr etsəniz, bu təqvimdən xeyli razı qalacaqsınız. İştirak etdiyiniz məkanlarda çalışın ki, daha çox sevdiyiniz adamlarla birgə olasınız.

**BALIQLAR** - Əsasən sənədləşdirmə və alış-veriş işi üçün uğurlarınız ola bilər. Saat 14-16 arası isə qazanc əldə etmək imkanınız yaranacaq. Şəxsi münasibətlər üçünsə gərgin gündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Döyüş multfilminə baxan uşaq qorxaq olur



Son illər sayı sürətlə artan və balaca uşaqları da öz maraq dairəsinə alan döyüş cizgi filmləri dünyada həyəcan yaradır. Belə ki, İsveç alimləri bu filmlərin uşaq psixologiyasına ciddi zərbə vurduğu qənaətindədir. Onların fikrincə, bu filmlərin təsiri altında böyüyən uşaqlarda aqressiya ilə yanaşı, qorxaqlıq da olur. Daim bu sayaq cizgi filmlərinə baxan 50 uşaq üzərində keçirilən müşahidədən sonra məlum olub ki, onlar hətta valideynlərinin də cizgi filmlərindəki qorxulu qəhrəmanlar kimi onları döyəcəyindən ehtiyatlanırlar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750